RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 105 (8698) BAZAR, 23 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyevin yeni informasiya strategiyası Azərbaycanın maraqlarını inamla təmin edir

## Dövlət başçısı regionun gələcəyi ilə bağlı planların və yeni çağırışların nələrdən ibarət olduğunu bir daha dünyaya çatdırdı

Azərbaycanın parlaq hərbi-siyasi Qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsinin nəticəsində bölgədə yeni reallıqlar yaranıb. Ən byöük reallıq isə odur ki, Prezident İlham Əliyev lider və sərkərdə qətiyyəti ilə respublikamızın ərazi bütövlüyünü bərpa etdi. Başqa bir reallıq da odur ki, Ermənistanın işğalçılıq siyasətinin darmadağın olunması Cənubi Qafqazda yeni beynəlxalq iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün zəmin formalaşdırıb.

### Diktə edən tərəf Azərbaycandır

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda keçirilən müzakirələrdə də regionda yaranmış yeni reallıqlardan söhbət açıldı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq: “Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır. Sizə deyə bilərəm ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq”.

Ermənistan 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlasa da, əslində bu çirkin siyasətinin qurbanı özü olub. Bu illər ərzində Azərbaycan işğalçı ölkəni bütün layihələrdən kənarda qoyub. Cənubi Qafqazın iqtisadi potensialı digər dövlətlərə uğur gətirsə də, xəstə təfəkkürdən əl çəkməyən Ermənistan bütün bunlardan məhrum edilib.

*Ardı 2-ci səh.*

# Dövlət başçıları ikitərəfli münasibətlərin inkişafı üçün böyük potensialın mövcud olduğunu qeyd ediblər



Mayın 22-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Dövlət başçıları hər iki ölkədəki vəziyyəti müzakirə edib, aktual məsələlərə dair fikir mübadiləsi aparıblar.

Aleksandr Lukaşenko həmkarına Belarusun dəstəklənməsinə və bu ölkəyə karbohidrogen xammalı göndərilməsinə görə təşəkkürünü bildirib. Dövlət başçıları ölkələr arasında ticarət dövriyyəsinin artmasını və ikitərəfli münasibətlərin inkişafı üçün böyük potensialın mövcud olduğunu məmnuniyyətlə qeyd ediblər.

Azərbaycan Prezidenti Azərbaycan-Ermənistan sərhədindəki vəziyyətlə bağlı ətraflı məlumat verib, bu yaxınlarda baş vermiş məlum hadisələrlə əlaqədar Azərbaycanın mövqeyini çatdırıb.

Aleksandr Lukaşenko ölkəsinin bu vəziyyətin yaxın günlərdə nizamlanacağına ümidvar olduğunu qeyd edib.

Belarus-Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyinə gəldikdə, dövlət başçıları əməkdaşlıq istiqamətlərini və Belarus Prezidentinin Azərbaycana səfəri zamanı əldə edilmiş razılaşmaların həyata keçirilməsini geniş müzakirə ediblər. Bildirilib ki, yaxın vaxtlarda Azərbaycanın şəhərsalma mütəxəssislərindən ibarət nümayəndə heyəti Belarusa səfər edəcək, belaruslu həmkarları ilə birlikdə regionda tikinti işlərinin başlanmasına dair planı işləyib hazırlayacaqlar.

Bundan əlavə, Azərbaycandan kənd təsərrüfatı üzrə nümayəndə heyətinin səfəri də gözlənilir. Bu sahədə də Belarus təcrübəsinə ciddi maraq müşahidə edilir.

Bütövlükdə qarşıdakı görüşlər çərçivəsində belaruslu inşaatçıların və digər mütəxəssislərin Azərbaycanda görəcəyi işlərin konkret planları hazırlanacaq.

***Prezidentin Mətbuat Xidməti***

# Xalq rəssamı Tahir Salahov - təsviri sənətin görkəmli nümayəndəsi



Böyük ənənələri, çoxəsrlik tarixi və görkəmli yaradıcıları olan Azərbaycan təsviri sənətinin tarixində dünya şöhrətli görkəmli rəssam Tahir Salahovun zəngin yaradıcılığı xüsusi bir mərhələ təşkil edir.

Özünün dərin kökləri etibarilə mənsub olduğu xalqın keşməkeşli taleyinə, zəngin dərin mənəviyyatına və davamlı təsviri sənət ənənələrinə bağlı olan Tahir Salahovun rəngkarlıqda nümayiş etdirdiyi orijinallıq və müasirləşmə onu bənzərsiz fərqli rəssam kimi böyük sənətin geniş meydanına çıxarmışdır.

Qürur hissi ilə demək mümkündür ki, Tahir Salahov nəinki Azərbaycanda, hətta dünya miqyasında geniş şöhrət qazanmış, özünün böyük sənət məktəbini yaratmışdır.

*Ardı 5-ci səh.*

Azərbaycan qədim zamanlardan təbii sərvətləri ilə dünyanın diqqətini cəlb etmişdir. Hər bir ölkənin olduğu kimi, bizim vətənin də özünəməxsus təbii, yeraltı və yerüstü sərvətləri var. Ümumiyyətlə, təbii sərvət dedikdə, insanların həyat və təsərrüfat fəaliyyətində istifadə etdikləri bütün təbiət komponentləri başa düşülür.



# Ölkəmizdə yaradılan yeni turizm strukturları bu sahənin inkişafını sürətləndirəcək

## Palçıq Vulkanları Turizm Kompleksinin təməlinin qoyulması bunu belə deməyə əsas verir

Dünyada mövcud olan 11 iqlim qurşağından 9-nun ölkəmizdə olması da təbii sərvətlərimizi zənginləşdirən amillərdəndir. Zənginliyinə görə Azərbaycan ərazisi mineral sular muzeyi adlandırılır. Respublikanın mineral-xammal bazası təkcə karbohidrogen ehtiyatları ilə bitmir. Ölkənin 450-dən artıq qara, əlvan və nəcib metal filizləri, qeyri-filiz xammalı və tikinti materialları, yeraltı şirin, mineral, termal və yodlu-bromlu sənaye suları, palçıq vulkanları və s. ehtiyatları var. Təbii sərvətimiz olan neft və qaz isə respublikamıza dünya şöhrəti qazandırmışdır.

Respublikamızın təbii sərvətlərinin mövcudluğu başqa sahələrdə olduğu kimi, turizmin inkişafında da böyük rol oynayır. Turizm iqtisadiyyatın ən böyük və dinamik sahələrindən biri, dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkəsinin xarici iqtisadi fəaliyyətinin vacib hissəsidir. Ölkəmizdə də turizmin inkişafı üçün böyük potensial var və onun inkişaf istiqamətləri geniş və çoxşaxəlidir.

Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələr sürətlə inkişaf etdiyi bir dövrdə beynəlxalq turizm xarici iqtisadi fəaliyyətin dinamik inkişaf edən sahələrindən birinə çevrilib.

*Ardı 4-cü səh.*

# «Qarabağ bölgəsi «yaşıl enerji» zonası kimi dünya üçün bir nümunə olacaq»

## Bu, Prezident İlham Əliyevin daha bir iqtisadi hədəfidir

Qarabağ “yaşıl enerji” zonasına çevrilir. Əslində, bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək “yaşıl zona”, yaxud “yaşıl məkan” konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanmışdır.

2020-ci ilin yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoymuşdur. Bu məsələ “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapmışdır.

Bu il mayın 3-də isə Prezident “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” sərəncam imzalamışdır. Dövlət başçısı bu ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır.

“Qarabağ bölgəsi “yaşıl enerji” zonası kimi dünya üçün bir nümunə olacaq.” Bu, Prezident İlham Əliyevin qətiyyətidir.

Məlum olduğu kimi, Qarabağın bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür.

*Ardı 4-cü səh.*

◆ ”Qarabağ söhbətləri”



# Şuşanın bir parçası...

## Yalçın Adıgözəlovla birgə “Qarabağ şikəstəsi” oratoriyası da vətəninə qayıtdı

...O gün Şuşa səması bir başqa cür aydın, təmiz idi. Qızmar günəş ora toplaşmış insanları iliyinə qədər isidirdi. Elə bil, 30 ilə yaxın buz bağlamış həsrəti dəqiqələr içində əritməyə tələsirdi.

Qarabağın musiqi sənətini genetikasında daşıyanların yaratdığı musiqilər Cıdır düzündən Şuşa səmalarına yayılırdı. Günəş enerjisini onlardan, onlar da günəşdən alırdılar, sanki. Şuşa o gün ruhların, ruhaniliyin ağuşuna sığınırdı, xumarlanırdı, sakinlərinin qayıdışının sevinci ilə bihuş olurdu.

“Bayatı-şiraz”, “Qarabağ şikəstəsi” Qarabağda səslənirdi...

Maestro Yalçın Adıgözəlov səhnədə orkestri idarə edirdi. Orkestr atası Vasif Adıgözlovun yazdığı “Qarabağ şikəstəsi” oratoriyasını çalırdı...

*Ardı 3-cü səh.*

# Qaydaların yumşaldılması gözlənilir

Ölkəmizdə koronavirusla bağlı müsbət tendensiya müşahidə olunur. Təhlükəli infeksiyaya yoluxanların və bu xəstəlik səbəbindən həyatını itirənlərin sayı azalmaqdadır. Hazırda ölkə vətəndaşlarını maraqlandıran suallardan biri də vəziyyətin bu cür davam edəcəyi təqdirdə veriləcək qərarlar və görüləcək tədbirlərdir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) verilən məlumata görə, ölkədə epidemioloji vəziyyət dəyərləndirilərək yumşaldılma tədbirləri barədə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müzakirələr aparılır. Bildirilib ki, bununla bağlı hələ rəsmi qərar qəbul edilməyib.

Bu il yay aylarında çimərliklərin açılması ilə bağlı məsələyə aydınlıq gətirilib. TƏBİB rəsmisi söyləyib ki, çimərliklərlə bağlı qaydaları TƏBİB tənzimləmir. Hazırda bu istiqamətdə müzakirələr gedir: “Ötən il də yay vaxtı bəlli şərtlərlə çimərliklər işləyirdi. Onda çimərliklərlə bağlı sanitar qaydalar hazırlanmışdı. Fiziki məsafə, əl gigiyenasının şərtləri və sair. Bu il də həmin qaydalar əsasında aidiyyəti strukturlar qərar verəcəklər”.

İsti günlərdə açıq havada maskadan istifadə ilə bağlı veriləcək qərarlar da böyük maraq doğurur. Açıq havada maska qadağası ləğv oluna bilər. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayevanın sözlərinə görə, hazırda bu məsələyə baxılır və bununla bağlı qərarlar elan olunacaq. O bildirib ki, bu istiqamətdə artıq qaydalar hazırlanır: “Yaxın vaxtlarda tibbi maskalarla bağlı yekun qərar elan ediləcək. Bu, məhz açıq havada maskadan istifadə ilə bağlı məsələni əhatə edəcək”. Yaqut Qarayeva açıqlayıb ki, bu yaxınlarda qərarlar elan olunacaq. Açıq havada və insanların fiziki məsafəni saxladığı şərtdə maskaların ləğv olunması elan oluna bilər. Amma rəsmi açıqlamaları gözləmək lazımdır.

*Ardı 8-ci səh.*

## “Elektroenergetika haqqında”, “Qaz təchizatı haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 363; 2001, № 11, maddə 696; 2002, № 12, maddə 709; 2003, № 1, maddə 12; 2006, № 8, maddə 657; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 261, № 12, maddə 1090; 2016, № 12, maddə 1990; 2018, № 3, maddə 379; 2019, № 6, maddə 988) 11-ci maddəsinə aşağıdakı məzmunda doqquzuncu və onuncu hissələr əlavə edilsin:

“Enerji təchizatı müəssisəsinin səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Enerji təchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərinin sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (enerji təchizatı müəssisəsinin razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma) hallarını müəyyən etdikdə, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.”.

**Maddə 2.** “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563; 2004, № 7, maddə 505; 2007, № 5, maddə 442; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 262, № 12, maddə 1091; 2015, № 11, maddə 1251; 2016, № 12, maddə 1991; 2017, № 6, maddə 1018; 2018, № 3, maddə 380, № 4, maddə 634; 2019, № 11, maddə 1689) 3-cü maddəsinə aşağıdakı məzmunda 5-1-ci və 5-2-ci hissələr əlavə edilsin:

“5-1. Qaz paylayıcısının səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

5-2. Qaz paylayıcısının səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərinin qaz sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (qaz paylayıcısının razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma) hallarını müəyyən etdikdə, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.”.

**Maddə 3.** “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 2; 2007, № 5, maddə 436; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 263; 2012, № 6, maddə 505; 2014, № 6, maddə 617; 2016, № 12, maddə 1992; 2018, № 5, maddə 854; 2019, № 6, maddə 989) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 12-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Su təchizatı müəssisəsinin səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.”;

3.2. 34-cü maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

“3. Kanalizasiya müəssisəsinin səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.”;

3.3. 49-cu maddəyə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

“4. Səlahiyyətli nümayəndələr sahibkarlıq subyektlərinin su sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar su təchizatı və ya kanalizasiya sisteminə qanunsuz qoşulma (su təchizatı və kanalizasiya müəssisəsinin razılığı olmadan sistemə qoşulma) hallarını müəyyən etdikdə, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.”.

**Maddə 4.** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739; 2018, № 11, maddələr 2187, 2200; 2019, № 1, maddə 29, № 2, maddə 201, № 6, maddə 1005; 2020, № 7, maddə 857) 2.3-cü maddəsinə “fəaliyyətinə” sözündən sonra “(elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması istisna olmaqla)” sözləri əlavə edilsin.

**Maddə 5.** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232, № 12 (I kitab), maddə 2520; 2019, № 2, maddə 202, № 6, maddə 1006; 2020, № 3, maddə 224) 2.1-ci maddəsinin birinci cümləsinə “və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamalar,” sözlərindən sonra “enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən sahibkarlıq subyektlərinin elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı yoxlamalara,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 aprel 2021-ci il*

## Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 20 illiyi münasibətilə Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Əliyev Firdovsi Şahmirzə oğlu

**“Tərəqqi” medalı ilə**

Allahverdiyev Rəşad Adadil oğlu
Ataşov Şahin Əjdər oğlu
Bağırov Ağaəli Məhəmməd oğlu
Əhmədova Seyran Əhməd qızı
Əmirov İlqar Fikrət oğlu
İbrahimova İradə Tahir qızı
İsayev Batıxan Xanlar oğlu
Qəribov Cabbar Ələsgər oğlu
Məlikov Ədilağa Əvəz oğlu
Məmmədov Cahid Murad oğlu
Məmmədova Gülşad Vaqif qızı
Piriyev Müzahim İman oğlu
Səmədov Ağamahmud Məhəmmədirza oğlu
Tağıyev Qınyaz Şirməmməd oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Əbdülov İmran Məmmədəli oğlu
Hüseynov Xalıqverdi Cəmil oğlu
Qəhramanov Akif Rüstəm oğlu
Məmmədov Fizuli Rafiq oğlu
Osmanlı Azər Binəli oğlu
Zeynalov Adil Şayıq oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2021-ci il*

## “Elektroenergetika haqqında”, “Qaz təchizatı haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 288-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2011-ci il 15 fevral tarixli 383 nömrəli və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Elektroenergetika haqqında”, “Qaz təchizatı haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 288-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 87; 2015, № 8, maddə 910; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 377, № 10, maddə 1778; 2018, № 10, maddə 2001; 2019, № 5, maddə 857; 2020, № 6, maddə 707) ilə təsdiq edilmiş “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1.5-2-ci bənd və 3.4.14-1-ci yarımbənd əlavə edilsin:

“1.5-2. Enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən sahibkarlıq subyektlərinin elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı aparılan yoxlamalara bu Əsasnamənin 3.2.3-cü, 3.3.6-cı, 3.3.7-ci, 3.4.4-cü, 3.4.9-cu, 3.4.10-cu, 3.4.12-ci, 3.4.15-ci, 5.1.7-ci, 5.1.8-ci, 5.1.9-cu və 5.1.13-cü yarımbəndləri şamil edilmir.”;

“3.4.14-1. yoxlama enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı təyin edildikdə, enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələri ilə sahibkar arasında bağlanılmış müvafiq müqaviləyə və sayğaca dair məlumatlar (müqavilənin nömrəsi, tarixi, sayğacın markası və nömrəsi);”;

1.2. 3.4.7-ci yarımbəndə “həyata keçirilməsi” sözlərindən sonra “, habelə bu Əsasnamənin 1.5-2-ci bəndində nəzərdə tutulmuş halın araşdırılması” sözləri əlavə edilsin;

1.3. 3.4.8-ci yarımbəndə “kodu” sözündən sonra “(bu Əsasnamənin 1.5-2-ci bəndində nəzərdə tutulmuş yoxlama üzrə isə fəaliyyət növü)” sözləri əlavə edilsin;

1.4. 3.4.18-ci yarımbəndə “yoxlamalar istisna olmaqla” sözlərindən əvvəl “, həmçinin bu Əsasnamənin 1.5-2-ci bəndində nəzərdə tutulmuş” sözləri əlavə edilsin;

1.5. 4.4-cü bəndə “əsaslandırıldıqda” sözündən sonra “, yoxlama enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə aşkar edilmiş qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı təyin edildikdə” sözləri əlavə edilsin;

1.6. 5.1-ci bəndin birinci cümləsinə “əsaslandırıldıqda” sözündən sonra “, yoxlama enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə aşkar edilmiş qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı təyin edildikdə” sözləri əlavə edilsin;

1.7. 5.1.6-cı yarımbəndə “kodu” sözündən sonra “(bu Əsasnamənin 1.5-2-ci bəndində nəzərdə tutulmuş yoxlama üzrə isə fəaliyyət növü)” sözləri əlavə edilsin;

1.8. 5.1.10-cu yarımbəndə “həyata keçirilməsi” sözlərindən sonra “, habelə bu Əsasnamənin 1.5-2-ci bəndində nəzərdə tutulmuş halın araşdırılması” sözləri əlavə edilsin.

2. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132; 2016, № 8, maddə 1384, № 10, maddə 1633; 2017, № 4, maddə 565, № 11, maddə 1997; 2019, № 2, maddələr 247, 249, № 3, maddə 415, № 4, maddə 621, № 6, maddə 1032; 2020, № 3, maddə 243, № 6 maddə 706) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bəndə “radiasiya təhlükəsizliyi sahəsində yoxlamalara,” sözlərindən sonra “enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən sahibkarlıq subyektlərinin elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı yoxlamalara,” sözləri əlavə edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı”nın 1.3-cü bəndi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2021-ci il*

## İlham Əliyevin yeni informasiya strategiyası Azərbaycanın maraqlarını inamla təmin edir

### Dövlət başçısı regionun gələcəyi ilə bağlı planların və yeni çağırışların nələrdən ibarət olduğunu bir daha dünyaya çatdırdı

***Əvvəli 1-ci səh.***

Ona görə erməni cəmiyyəti işğal dövründə yerində sayıb, əhalisi səfalət günündə yaşayıb. İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətindən sonra isə Ermənistan tarixinin ən ağır günləri ilə üzləşib. Ölkə elə bir dərin siyasi-iqtisadi böhrana yuvarlanıb ki, sonu görünmür.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, onlar Azərbaycanın enerji və daşımaların inkişafı təşəbbüslərindən məhrum oldular, nəhayət, işğal etdikləri əraziləri itirdilər.

Uzun illərdir ki, Azərbaycan nail olduğu mühüm siyasi-iqtisadi uğurlarına görə Cənubi Qafqazın lideri statusunu daşıyırdı. Bölgədə indiyədk həyata keçirilmiş bütün nəhəng layihələrin söz sahibi kimi respublikamız çıxış edib. İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqların da aparıcı qüvvəsi və diqtə edən tərəfi Azərbaycandır. Bu reallıqların müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Ermənistanın isə bu reallıqlarla hesablaşmaqdan başqa yolu yoxdur.

### Mütərəqqi informasiya siyasəti

İndi qarşıda duran mühüm vəzifələrdən biri əsl həqiqətlərin, müharibədən sonra bölgədə yaranan yeni reallıqların həm də dürüst şəkildə beynəlxalq auditoriyaya çatdırılmasıdır. Bu baxımdan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda müzakirələri əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Müzakirələr zamanı çox məsələlərə toxunuldu, Prezident İlham Əliyev onların hər biri barədə Azərbaycanın mövqeyini beynəlxalq ictimaiyyətə çatdırdı. Dünyada tanınan siyasətçilərin, prezident, baş nazir kimi vəzifələr tutmuş dövlət xadimlərinin, diplomatların, politoloqların iştirakı ilə keçirilən müzakirələr həm də onu göstərdi ki, Prezident İlham Əliyev təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də dövlətin informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir. İlham Əliyev bir daha əsl həqiqətləri onların diqqətinə çatdırdı, regionu gözləyən yeni çağırışların nələrdən ibarət olduğunu açıqladı. Həmin dövlət xadimlərinin öz ölkələrində və dünyada olan nüfuzlarını , politoloji fikrə, ictimai rəyə təsir imkanlarını nəzərə alsaq deyə bilərik ki, bu cür tədbirlər İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın yürütdüyü mütərəqqi informasiya siyasətindən xəbər verir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin nitqlərinə, bu cür müzakirələrdə iştirakına xarici mediada və siyasi dairələrdə olan maraq onu deməyə əsas verir ki, yeni informasiya strategiyası ölkəmizdə, regionda və dünyada baş verən mühüm proseslərə dair Azərbaycanın mövqeyini və müvafiq mesajları daha effektiv şəkildə beynəlxalq ictimaiyyətə çatdırmaq imkanı verir. İlham Əliyev heç bir sualdan yayınmır, bütün məsələlərə mahiyyəti üzrə aydınlıq gətirir, onlara sistemli yanaşma nümayiş etdirir, məntiqlə və əhatəli şəkildə təhlil edir. Diqqəti çəkən başqa bir məqam Azərbaycan Prezidentinin yeni informasiya strategiyasının şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanmasıdır. Bu strategiya ölkəmizin milli maraqlarının müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət kimi mühüm amillər üzərində qurulub.

Ekspertlər də Prezident İlham Əliyevin müzakirə və debatlarda, mətbuat konfranslarında ən mürəkkəb suallara açıqlığı və onları peşəkar formada cavablandırmaq bacarığını, yüksək məntiqini, intellektini, diplomatik məharətini, dünyada, regionda və ölkədə baş verən hadisələr və cərəyan edən proseslər barədə tam məlumatlılığını, elmi-politoloji biliyini yüksək qiymətləndirirlər.

Yeni informasiya strategiyası müharibə dövründə Ermənistan-Azərbaycan münaqişəsi, Vətən müharibəsi haqqında həqiqətlər barədə dünya ictimaiyyətini ətraflı məlumatlandırmağa şərait yaratdığı kimi, postkonflikt dövrdə də regionun gələcəyi ilə bağlı planlar, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, ermənilərin vandallığı və bunun mənəvi və hüquqi nəticələri barədə dünyaya dolğun məlumat verməyə şərait yaradır. Eyni zamanda bu strategiya Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərksilah edilməsində mühüm rol oynayır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Xəzər Siyasət Mərkəzinin nümayəndələri Ağdamda erməni vəhşiliyinin şahidi olublar

Mayın 22-də ABŞ-ın Xəzər Siyasət Mərkəzinin nümayəndə heyəti Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ağdam şəhər Cümə məscidinə gələn nümayəndə heyəti burada ermənilərin törətdikləri barbarlıqlar haqqında məlumatların və fotoların əks olunduğu stendlərlə tanış olublar. Onlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid “Qarabağ məscid memarlığı” məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Cümə məscidi ölkə əhəmiyyətli abidələr siyahısındadır.

Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib.

Nümayəndə heyəti Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına baxıb, sonra Ağdam şəhərindəki İmarət qəbiristanlığına gəlib. Məlumat verilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar. İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən Xan sarayında inək və donuz saxlanılıb.








Xəzər Siyasət Mərkəzinin nümayəndələri Ağdama səfər çərçivəsində Şahbulaq qalasında da olublar. Bildirilib ki, Qarabağ ərazisindəki ən məşhur abidələrdən biri Ağdam rayonunun ərazisindəki XVIII əsrə aid Şahbulaq qalasıdır. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən bu qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda “Şahbulaq qəsri” adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Saray kompleksi yerli inşaat materialları əhəngdən və dağ daşlarından inşa edilib. Kompleksin yeganə girişi Şərq tərəfdəndir. Şahbulaq saray kompleksinin şimal-qərbində, bulağın yaxınlığında məscid də inşa edilib. Qəsr adını gur sulu bulağın adından alıb. Düşmən 1993-cü ildə Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, lakin buna nail olmayıb.

# Birlik bayramı, qayıdış bayramı, ləyaqət bayramı

◆ "Qarabağ söhbətləri"



# Şuşanın bir parçası...

## Yalçın Adıgözəlovla birgə "Qarabağ şikəstəsi" oratoriyası da vətəninə qayıtdı

*Əvvəli 1-ci səh.*

Musiqinin sədaları altında maestro da izaholunmaz hisslərlə dirijor çubuğunun ahənginin axarına düşmüşdü. Başı yuxarı, üzü göylərə. Buludlardan çox aşağı, Şuşadan azca yuxarıda bir qartal süzürdü, qanadlarını havanın və musiqinin ahənginə buraxıb səmaya pərvazlanırdı. Düz orkestrin üstündən, Yalçın Adıgözəlovun gözləri qarşısından süzüb keçəndə qartal qartallara xas bir qətiyyətlə qanad çaldı və göylərin ənginliklərinə sarı gözdən itdi...

Maestronun simasından orkestrin üstünə bir insanın simasına sığmayacaq sevinc yağdı...

"Qarabağ söhbətləri"ndə bu dəfə Bakı Musiqi Akademiyasının Dirijorluq kafedrasının professoru, Azərbaycan Respublikasının Xalq artisti Yalçın Adıgözəlovla həmsöhbətik. "Xarıbülbül" festivalında iştirak edən Yalçın Adıgözəlov Şuşanın günəşində yanıb, bulağından su içib, havasını udub, uzun illər həsrətini çəkdiyi küçələrində gəzib, səhnəsində çıxış edib. Bunlardan danışırıq, o mistik anları necə yaşamasından...

### Sevincin sarsıntısı

- Bir həftədir Şuşadan qayıtmışıq, hələ də gördüklərim mənə yuxu kimi gəlir və özümü toparlaya bilmirəm. Çox həyəcanlı idim. Mənəvi sarsıntı keçirmişəm sevincdən. Amma sarsıntının yaxşısı da, pisi də elə sarsıntıdır, onu cilovlamaq asan olmur.

Gözlərim qarşısında atamın obrazı canlanırdı. Zülfi babamı, əmim Rauf Adıgözəlovu düşünürdüm ki, onlar necə yaşayardılar Şuşaya qayıdışı. Özümü çox xoşbəxt hiss edirəm, atamın vəsiyyətini yerinə yetirə bildim. Demişdi mütləq "Qarabağ şikəstəsi" oratoriyasını Şuşada səsləndirərsən. İnanırdı ki, o gün gələcək, deyirdi Şuşa azad ediləcək və "Xarıbülbül" festivalı bərpa olunacaq. O zaman bu oratoriyanı orda səsləndirərsən. Əsər 35 dəqiqəlikdir, amma Şuşada yalnız 7 dəqiqəlik finalı səsləndirdik. Gələcək festivallarda tam şəkildə ifa edərik.

Səhnəyə çıxanda özümü unutmuşdum, heç nə hiss etmirdim. Şuşa - doğma məkan almışdı ağuşuna məni.

### Baba evi

- Hər yay Şuşaya gedərdim. Mən 1959-cu ildə Bakıda babam Zülfi Adıgözəlovun evində anadan olmuşam. Atam Vasif Adıgözəlov Bakıda anadan olub. Babam Ağcabədinin Qaradolaq kəndində doğulub. Qışda şuşalılar Ağcabədiyə qışlağa gedərmiş. Babam da ailə qışlaqda olarkən dünyaya gəlib. Dahi Üzeyir bəylə eyni kənddə.... Üzeyir bəy oradan köçüb Şuşaya. Zülfi Adıgözəlovun Bakıya köçməsinin səbəbkarı da Üzeyir bəy olub. 1925-ci ildə Şuşada toylardan birində babamı Cabbar Qaryağdıoğlu dinləyib. Babamın onda 27 yaşı varmış. Həmin toyda Fikrət Əmirovun atası Məşədi Cəmil də olub. İkisi də babamı Bakıya dəvət ediblər. Babam gəlib Bakıya, Üzeyir bəy onu dinləyib və filarmoniyaya solist götürüb.

Ulu babam Səməd bəy Adıgözəlovun evi Şuşadadır. Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov babamın evinin yerini göstərdi mənə. Dedi dədənin evi burda idi, gəlib burda ev tikərsən...

### Cənnət elə Qarabağdır...

- 30 ildir dünyada Azərbaycan musiqisini təbliğ edirəm. Görmədiyim ölkə qalmayıb. Qarabağ təbiəti kimi fantastik, təkrarolunmaz təbiət heç bir yerdə görməmişəm, heç yoxdur da. Adamın içi ona görə göynəyir ki, ermənilər ən gözəl yerlərimizdə məskən salıblar, hələ bu da onları qane etməyib, daha çox istəyirlər.

Azərbaycanın hər qarışı vətəndir və əzizdir bizə. Naxçıvan da gözəldir, Quba da gözəldir, amma Qarabağ fərqlidir. Cənnət əgər varsa, elə Qarabağdır!

Qanla qaytardıq torpaqlarımızı, şəhidlər verdik. O qəhrəman, qartal oğulların canı, qanı bahasına Şuşa işğaldan azad olundu. Mən "Qarabağ şikəstəsi" oratoriyasını ifa edəndə başımızın üstündən bir qartal uçdu, o qartal həmin igidlərin ruhu idi. Çox təsiredici, duyğulu bir aura vardı Şuşada, Cıdır düzündə...

### Növbəti festivallara indidən hazırlaşmalıyıq

- "Xarıbülbül" festivalı ənənəvi olacaq. Bu, sayca dördüncüsü idi. Əvvəlkilər 1989-cu, 1990-cı və 1991-ci illərdə keçirilmişdi. Torpaqlarımız azad olunandan sonra Prezident İlham Əliyev festivalı bərpa etdi. İndi bilmirəm, gələnilki festival 5-ci olacaq, yoxsa ikinci. Mən istərdim ki, 5-ci festival olsun. İnanıram ki, şərait də bugünkündən daha yaxşı olacaq. Min nəfərdən artıq adam vardı bu dəfə. Onların hamısını işğaldan yeni azad edilmiş, dağıdılmış şəhərdə yerləşdirmək, qəbul etmək asan deyildi. Amma Heydər Əliyev Fondu tərəfindən hər şey çox yüksək səviyyədə təşkil edilmişdi.

Növbəti festivala indidən hazırlaşmalıyıq. Bütün dünya ölkələrindən qonaqlarımız olacaq. Şuşadan qayıdandan sonra birdənbirə telefonuma minə yaxın mesaj gəldi. Şuşada olanda təhlükəsizlik üçün internet yox idi. Ordan çıxan kimi gördüm dünyanın hər yerindən mənə təbrik mesajları gəlib. Hamı gəlmək, Şuşanı görmək arzusundadır. İtaliya, Fransa, Amerika, bu vaxta qədər hansı ölkələrdə olmuşamsa, hamısından mesaj gəlmişdi. Braziliyada 90 nəfərlik orkestrin rəhbəri yazıb ki, hamımız Şuşaya gəlmək istəyirik. O orkestrlə 7 ildə üç dəfə konsert vermişik. Hər konsertə də iki-üç Azərbaycan əsəri salmışam repertuara. Qara Qarayevi, Üzeyir bəyi, Niyazini səsləndirmişəm Braziliyada. Onlar bizim musiqini çox sevirlər. Deyirlər, fantastikadır, yoxdur belə musiqi dünyanın başqa ölkəsində. Azərbaycan səfirliyi ilə birlikdə festival keçirmişik Braziliyada. Mətbəximizi, rəsm əsərlərimizi də sərgiləmişdik. Bütün mədəniyyətimizlə tanış etmişik onları. İndi gəlib Qarabağı görmək istəyirlər.

### Vaqif Poeziya Günləri keçiriləcək

- Elçin, Yusif, Dinara Moskva Böyük Teatrında çalışan həmyerlilərimizdir. Hər biri Şuşada festivaldan bir paylaşım etmişdi. Hər yerdən onlara da mesajlar gəlirdi. Onların dəvət olunması düzgün siyasət idi.

Selcan Nəsibli Londonda çalışır, Azər Rza Milandan gəlmişdi. Yusif Rzayevin paylaşımında çıxışına iki saatda iki milyon insan baxmışdı. Bu, çox əhəmiyyətlidir. Yusifin, Elçinin "Sənsiz"i oxumalarını bizim insanlar qəbul etmir. Düşünürlər ki, onlar Bülbül kimi oxuya bilməzlər, çünki bunlar Avropa üslublu klassik ifaçılardır. Amma onların çevrələri genişdir, bu, Azərbaycanı tanıtmaq, təbliğat üçün çox vacibdir. Düzgün düşünülmüşdü.

Hələ ilin axırında Vaqif Poeziya günləri. Vaqifin məqbərəsi artıq bərpa olunur, çox az qalıb, tamamlama işləri gedir. Onun açılışı qarlı bir qış havasında Ulu Öndərin iştirakı ilə olmuşdu.

### Qarış-qarış gəzərdik Qarabağı...

- Hər şey bərpa olunacaq, hamısı qayıdacaq yerinə. Təəssüf ki, o insanlar olmayacaqlar. Süleyman Ələsgərovu Şuşa dərdi apardı. Süleyman əminin oğlu rəhmətlik Əyyubla qardaş kimi idik. Bir həyətdə böyümüşdük. Mayın axırından gedirdi Şuşaya, bir də sentyabrda qayıdırdı. Mən də müxtəlif ölkələrdə musiqi təhsili almışam, 30 yaşa qədər çalışmışam. Hər yay tətilə gələndə günlərimin əksəriyyətini Şuşada Əyyubla keçirirdim. Süleyman müəllimin evində qalırdıq. Ağgül xanımın bərəkətli süfrəsində gözəl təamlardan dadardıq. Qarış-qarış gəzərdik Qarabağı. Hər səhər də Şuşanın bazarına gedərdik. Çox gözəl bazarı vardı. Bazarın qəribə ətri vardı, hələ də qoxusu burnumdadır.

Şuşanın musiqi məktəbində çox olmuşam. Tətil günlərində Şuşada musiqi mühiti adamı tərk etmirdi. Çay daşı döşənmiş küçələri yağışdan sonra mirvari kimi parıldayırdı. Yaşıllığı tamam bir başqa idi. Bu səfər zamanı bir məqama fikir verdim. O vaxtlar nə qədər qavrasam da təbiəti, Şuşanın gözəlliyini, sən demə, duymamışam. Bu dəfə Şuşanı dərindən duydum, yaşadım, oldum Şuşanın bir parçası. Görünür, 20-30 yaşda onu duymaq olmazmış, indiymiş vaxtı. Anladım ki, doğmalıq bu duyumla olur. Kök var, bağlılıq var. Deyirlər ki, 30 il Şuşada doğulanımız olmayıb, sənət bağı qırılacaq. Daha Üzeyirlər, Zülfülər, Bülbüllər yetişməyəcək. Deyirəm yox, genetika var, qan var, kök var, davam edir. Bakıda doğulanlar da onu davam etdirəcək.

Əgər genetik olsaydı, ermənilərdən də muğam oxuyan çıxardı. Deməli, yoxdur. Kamançanı ifa edirlər, o barmaq texnikasıdır, boğazı texnika ilə yaratmaq olmur. Bakıda doğulan qarabağlı gənclər tanıyıram, konsertlərdə görürəm, heyrətamiz səsləri, ifaları var.

### Kaş ki, o da qayıda biləydi Şuşaya...

Qayıdan kimi getdim atamın məzarı başına, onu ziyarət etdim. Dedim Şuşadan gəlirəm, ata. Çox kövrəldim, kaş ki, o da qayıda biləydi Şuşaya. Yaxşı ki, ölməz əsəri qayıtdı, Şuşada səsləndi. Atam qayıda bilmədi, amma "Qarabağ şikəstəsi" oratoriyası vətəninə qayıtdı.

Eşitdim Şuşanın təbiətini qorumaq üçün orda yalnız elektromobillər olacaq, avtomobil olmayacaq. Natəvan bulağından su gəldi artıq. Demək, həyat bərpa olur şəhərdə. Şuşada yenə musiqi məktəbləri açılacaq. Konservatoriyanın filialı olacaq. Füzulidə beynəlxalq hava limanı açılandan sonra təhlükəsizlik beşqat təmin olunacaq. Daim gedib gələcəyik. Özü də tək biz yox, dünyanın hər yerindən oraya insanlar axışacaq.

Çox istəyirəm bu festival təkcə Şuşada olmasın, Qarabağı gəzsin, Laçında, Kəlbəcərdə, Ağdamda da keçirilsin. Əsas odur ki, o yerlərə həyat qayıtsın, sakinlər yurdlarına dönsünlər. Qarabağın hər küncündən uşaq səsi gəlsin. Uşaq səsi gəldisə, həyat olacaq.

...Qartal qanadlarını çırpıb Şuşanın göylərinin ənginliklərində gözdən itdi. Qartalın qanad çaldığı yerdən "Qarabağ şikəstəsi" oratoriyasının ahənginə ondan da uca bir səs qarışdı. Uşaq ağlayırdı, yenicə doğulmuş uşaq...

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Şuşada türk dünyasının qəlbi döyünürdü

Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalı tarixə çevrilsə də, ancaq uzun illər xatirələrdə yaşayacaq, hər dəfə Şuşanın adı çəkiləndə, bu müqəddəs məkana səfər edəndə yada düşəcək, qürur doğuracaq. Çünki bu adi bir festival deyildi, 30 illik ağrılı-acılı günlərin, həsrətin sonu, milli birliyimizin təntənəsi idi.

Şuşada bütün Azərbaycan xalqının, Türk dünyasının qəlbi döyünürdü. Nəinki insanlar, sanki dağlar, qayalar, güllər, çiçəklər də sevinirdi. Çünki müqəddəs şəhər, ana torpaq murdar nəfəslərdən, mənfur niyyətlərdən, nifrətli, qəddar baxışlardan, məkrli ayaqlardan təmizlənmişdi.



Cıdır düzü qol açmışdı, Xarıbülbül insanların sinəsində dilə gəlmişdi! Pənah xanın, Vaqifin, Üzeyirin, Xanın, Bülbülün, Cabbarın, bu torpağın uğrunda canını qurban verən ölməz şəhidlərimizin ruhu şad idi. Ədalət, həqiqət cəsarətlə, istək, arzu əzmlə, hünərlə, inam dəmir yumruqla, məhəbbət, səadət zəfərlə, əməl qətiyyətlə qol-boyun idi. Bu, hər anı bir əsrə bərabər olan tarix idi və dünyaya Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin, qəhrəman, Müzəffər Ordumuzun, yenilməz, cəsur xalqımızın böyüklüyünü, əzəmətini, torpaq, vətən uğrunda birliyini, qürurunu nümayiş etdirirdi.

Səslənən fikirlər, qəlbləri riqqətə gətirən muğamlar, mahnılar, ifa olunan rəqslər, təbəssümlər sanki ilahiləşmişdi, zaman da, an da elə bil ki, müqəddəsləşmişdi.

Adama elə gəlirdi ki, Şuşa uzun illərin dəhşətlərini, həsrətini bir anda unutmuşdu. Yox, unuda bilməzdi. Yadelli yağılara baş əyməyən, ən qəddar düşmənə göz dağı olan, alınmaz qalaya çevrilən bu şəhər ötən əsrin 90-cı illərinin əvvəllərində xəyanətin qurbanına çevrildiyini və ermənilərə satıldığını heç vaxt yaddan çıxara bilməz. Başına gətirilənlərdən dərs aldığı, keçmişi unutmadığı, gələcəyə ümidlə baxdığı üçün Şuşa həmişə dözümlü olub.

"Xarıbülbül" festivalının keçirildiyi o günlərdə hər bir azərbaycanlının, bu torpağı, dövləti sevən hər bir insanın qəlbi Şuşa ilə bir döyünürdü.

Şuşa qollarını dünyaya, onu sevənlərə, sevincinə şərik çıxanlara geniş açmışdı. Azərbaycan həqiqətlərini dünyaya bəyan edirdi.

Şuşa Azərbaycana heç bir zaman yaşamadığı möhtəşəm, unudulmaz bir bayram yaşadırdı. Bu kəhkəşan, bu atəşfəşanlıq şəhidlərimizin qızıl qanından mayalanmışdı, göylərə ucalaraq od kimi düşmənin başına ələnirdi, gözlərini çıxarır, ürəyini partladırdı.

Şuşa Xarıbülbüllə qol-boyun idi.

Şuşa bütün Azərbaycan xalqı ilə, Dünya Azərbaycanlıları ilə, Türk Dünyası ilə, sülhsevər insanlar ilə qol-boyun idi.

Şuşa haqla, ədalətlə qucaqlaşmışdı. Dünyaya haqqın təntənəsini, ədalətsizliyin, vəhşiliyin çirkin üzünü, ölümə məhkumluğunu nümayiş etdirirdi. Bəşəriyyəti nasizmə, terrora, təcavüzə, qəddarlığa qarşı birgə mübarizəyə səsləyirdi.

Şuşa din, əqidə, məslək qardaşları ilə qoşa dayanmışdı. Talışı, ləzgini, rusu, avarı, tatı, yəhudini, Azərbaycanın müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda inamla mübarizə aparan xalqların nümayəndələrini əziz övladı, oğlu-qızı kimi qoynuna almışdı. Onların nəfəsini duyur, istəklərindən qanadlanırdı, fərəhlənirdi.

Şuşa Yuxarı Gövhər ağa məscidindən oxunan duaların, qılınan namazların, ibadətlərin fövqündə Tanrıya yaxınlaşmışdı, bugünkü xoşbəxt anların, insanlarımızın sevinci, həqiqətin təntənəsi üçün ona əl açmışdı, qarşısında baş əyirdi, bəndələrinin dualarının qəbul olunmasını diləyirdi.

Şuşa xoşbəxt, Xarıbülbül azad idi.

Bu gözəl günləri görmək istəyən hər bir insan da xoşbəxt idi.

Ulu Öndər Heydər Əliyevin işğal altında olan torpaqlarımızın taleyi ilə bağlı bir vaxtlar söylədiyi fikirlər hamını kövrəltmişdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik".

Bu nidalarda böyük bir uzaqgörənlik, qətiyyət, inam vardı. Gələcək nəsillərə bir vətəndaş, rəhbər çağırışı kimi səslənən bu fikirlər həm də Ümummilli Liderimizin arzularının, ümidlərinin ifadəsi idi. O, yaxşı bilirdi ki, özü kimi inandığı, etibar etdiyi bir şəxs - İlham Əliyev gec-tez işğal altında olan torpaqları düşməndən azad edəcək, yağıları, qəddarları əyəcək, şəhidlərimizin qanını yerdə qoymayacaqdır.

Ümummilli Lider inanırdı ki, oğlu onun etimadını doğruldacaq, düşmən tapdağı altında olan şəhərləri, kəndləri, məscidləri, dini-tarixi abidələri sakinlərinə qovuşduracaq, öz əzmi, siyasəti, cəsarəti ilə Azərbaycan xalqının başını ucaldacaq, nəinki düşməni, dünyanı heyrətdə qoyacaq və yeni bir tarix yazacaqdır.

Heydər Əliyev Azərbaycan xalqının qüdrətinə, gücünə inanırdı. Bilirdi ki, xalqı ilə həmrəy olan İlham Əliyev mütləq və mütləq bütün çətinlikləri dəf edəcək, torpaqlar işğaldan azad olunacaq, Şuşa xoşbəxt günlərinə qayıdacaqdır.

Əziz Şuşamızda hərarətli, möhtəşəm bir səs dağı-daşı titrədirdi, insanların qəlbini riqqətə gətirməklə bərabər, həm də kövrəldirdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdik. Bu, Böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözümüz aydın olsun, dünya azərbaycanlıları! Qarabağ Azərbaycandır! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" kəlmələrinin sədası qəlbləri titrətməklə bərabər, düşməni, təcavüzkarlara dəstək verənləri bir daha sarsıtdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan dünyaya bir daha öz çağırışını edərək bildirdi ki, "Biz sülh, əmin-amanlıq, quruculuq tərəfdarıyıq, ancaq hər bir təxribata qarşı dəmir yumruq yerindədir. Heç bir qüvvə bizə təsir edə və yolumuzdan döndərə bilməz".

Bu sözləri dövlətimizin rəhbəri dəfələrlə səsləndirib və bəşəri ideyalara, insanlığa sədaqətini əməli ilə sübut edibdir. O, bununla həm də rəhbər, vətəndaş mövqeyini ortaya qoyur və öz borcunu, vəzifəsini, sözünü dəyərləndirmişdir.

"Biz işğal altında olan torpaqlarımızı mütləq düşmənlərdən azad edəcəyik" deyirdi. Nəticələr göz qabağındadır.

"Azərbaycan beynəlxalq aləmdə tanınacaq, nüfuz qazanacaq, söz sahibinə çevriləcəkdir" kəlmələrini dönə-dönə xatırladırdı.

Bu sahədə də uğurlu nəticələr var. Dost ölkələrin, sözümüzü deyənlərin, səsimizə səs verənlərin, uğurlarımıza sevinənlərin sayı xeyli artmışdır. 44 günlük müharibə dövründə biz bunun canlı şahidi olduq.

"Azərbaycanın regionları, şəhər və kəndlərimiz inkişaf edəcək, mədəniləşəcək, insanların sosial rifah halı yüksələcək, hər bir vətəndaşa qayğı və diqqət artırılacaq" vədinə əməl edən Prezidentimiz bu gün işğaldan azad olunan torpaqların, ərazilərin abadlaşdırılması, cənnətə çevrilməsi vəzifəsini öz üzərinə götürmüşdür və bu istiqamətdə çox mühüm tədbirlər həyata keçirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla və Arzu Əliyevaların Şuşaya səfəri zamanı biz bunun əyani şahidi olduq.

Cənab Prezident və ailəsi 110/35/10 kilovatlıq "Şuşa" yarımstansiyasının, Şuşada "Xarıbülbül" hotelinin yenidənqurmadan sonra açılışında iştirak etdilər, hotelin nəzdindəki 48 mənzilli korpusda və koteclərdə yaradılan şəraitlə tanış oldular. Şuşada yeni məscidin, 1 saylı ümumtəhsil məktəbinin təməlini qoydular və davam etdirilən bir sıra işlərlə yaxından maraqlandılar. Bütün bunlar deməyə əsas verir ki, həqiqətən də Şuşa cənnətə çevriləcək, nəinki respublikamızın mədəniyyət paytaxtı kimi, dünyanın ən gözəl şəhəri kimi tanınacaqdır.

"Bu gün ölkəmizin tarixində əlamətdar bir gündür" deyən Azərbaycan Prezidenti 30 illik vətən həsrətinin sevincini xalqımızla bölüşməklə şəhidlərimizi yad etdi: "Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq". Dövlət başçısı "Xarıbülbül" musiqi festivalının şəhidlərimizin əziz xatirəsinə həsr edildiyini xatırlatmaqla bir daha onlara sonsuz hörmət və ehtiramını ifadə etdi.

Əlbəttə, "Xarıbülbül" musiqi festivalı adi bir bayramın təntənəsi deyildi. Bu bayram 30 illik torpaq, yurd-yuva həsrətinin sonu, Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətinin, şanlı ordumuzun rəşadətinin, xalqımızın birliyinin, qəhrəmanlığının təntənəsi idi.

Bu bayram şəhidlərimizin, nisgilli ana-bacılarımızın, min bir əzablara tab gətirən atalarımızın, qəlbinə çalın-çarpaz dağ çəkilən əzizlərimizin, balalarımızın, bizi istəyənlərin və gələcəyə, qələbəyə ümid bağlayan milyonların inamının, duasının təntənəsi idi.

Bu bayram Dünya Azərbaycanlılarının, Türk Dünyasının illərlə sızıldayan yarasına, acısına-ağrısına bir məlhəm idi.

Bu bayram Allahın Azərbaycana, xalqımıza əta etdiyi məhəbbətin lütfü, insanlarımızın Tanrıya ehtiramının ifadəsi idi.

Bu bayram Şuşanın, Xarıbülbülün əbədi, ölməz bir həyat qazanmasının, bundan sonra daha xoşbəxt günlərə qovuşacaqlarının nümayişi idi.

Bu bayram Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə əbədi ömür bəxş edən, xalqımızın qəlbində daimi, əsrlərlə yaşamağa haqq qazandıran, nəslimizə-kökümüzə unudulmaz şöhrət gətirən bir bayram idi. Tanrım belə günləri Azərbaycan xalqına çox görməsin.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***



# Qafqaz albanlarının türk mənşəli olması elmi şəkildə sübut olunmuşdur

Erməni alimləri, onların xarici və daxili havadarları hər vəchlə türklərin Qafqazda, İran yaylasında, İraqda, Şərqi Avropada (macar tarixçisi Farkas İldiko (7 mart 2014) Macar turançılığının türk əlaqələri) və Anadoluda aborigen olması məsələsinə ciddi cəhdlə kölgə salmağa çalışırlar. Hər yerdə kiçik və ya böyük Ermənistan xəyalı nağılından istifadə edirlər. Hayların rus istilasına qədər (1828) Qafqazla və ya Qafqaz xalqları ilə həm coğrafi, həm də siyasi baxımdan qeyd etsək, məlum olur ki, heç bir əlaqəsi olmamışdır. 1828-ci ildən əvvəl Qafqazda erməni amilinin qəbul edilməsi qətiyyən mümkün deyildir.

Buna görə də qrabar və ya aşxarabar dilli mənbələrin Albaniya ilə yaxın, uzaq heç bir əlaqəsi real elmi tədqiqatda təsdiqini tapmamışdır. Bu, ermənilərin tarixi sənədlərə "redaktə" yolu ilə müdaxiləsi nəticəsində yaranmışdır. Müasir Ermənistan tarixçiləri Albaniyaya sahiblənmək üçün heç bir əsas olmadan Aluank, Ağvank toponimlərini "elmi alver" üçün yaratmışdılar.

Mayın 15-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsinə baş çəkərkən bu barədə maraqlı məlumatlar verilib. Dövlət başçısı vurğulayıb ki, ermənilər XIX əsrdə də bütün alban tarixi mirasını özününküləşdirmək istəmişdilər.

V.V.Bartold antik ədəbiyyat mənbələrinə qiymət verərək onların ermənilər tərəfindən saxtalaşdırılması ilə əlaqədar çox maraqlı və lazımlı bir tezis irəli sürmüşdür: "Bədbəxtlik ondadır ki, yunan orijinalları bizə çox gec, işləndikdən, əl gəzdirildikdən sonra gəlib çatıb; bunların çox vaxt müqayisə edilən məlumatları heç bir tənqidə məruz qalmayan sadəcə kompilyasiya şəklindədir və buna görə də bu mənbələrə son dərəcə ehtiyatla yanaşmaq lazımdır" (Бартольд В.В."Место прикаспийских областей в истории мусульманского мира". - Соч. М., 1963, т. 2.).

Uzun illər sovet ideoloqları siyasi hakimiyyətlərindən istifadə edərək məqsədli şəkildə türklərin genezisinin tədqiq edilməsinə imkan vermirdilər. Lakin bu, heç də o anlama gəlməməlidir ki, sovet hakimiyyəti illərində bu sahədə_- "Qafqazda albanlar" mövzusunda araşdırmalar aparılmamışdır. Bir sıra problemlər tədqiq edildikdə məcburən Albaniya tarixinin öyrənilməsinə ehtiyac yaranırdı. Albanların türklüyü son illərdə bir çox alimlərin tədqiqatının nəticəsi kimi çox böyük fenomenal hadisədir. Professor Fəridə Məmmədovanın Albaniya tarixi ilə əlaqədar tədqiqatlarını ("Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası", Bakı, 1993), Qiyasəddin Qeybullayevin "Azərbaycan türklərinin təşəkkülü tarixindən" (Bakı, 1994), Z.İ.Yampolskinin "Древняя Албания III-I вв. до н.э." (Bakı, 1962) əsərlərini xüsusi ilə qeyd etmək lazımdır.

Araşdırmalar açıq və ya zamana uyğun olaraq gizli şəkildə də aparılmışdır. Görkəmli qafqazşünas tarixçi Yevgeni İqnatyeviç Krupnov albanların türklüyü ilə əlaqədar yazırdı: "Albaniya tarixinin öyrənilməsi işində heç bir məhdudiyyət və məcburiyyət olmamalıdır. Albaniya tarixini müxtəlif ölkələrin tarixçiləri öyrənirlər. Lakin bir şey də məlumdur: Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Bu sahədə onlar dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar".

Yeni elmi araşdırmalarda "alban" etnik adını qədim türk "alp"(cəsur, igid) sözü ilə bağlayırlar. "Kitabi Dədə Qorqud"da bu etnosun "alpanlar" şəklində yazılışı, "alp" köklü toponimlərin Quzey Azərbaycanda, həmçinin vaxtilə Alban dövlətinə daxil olan Cənubi Dağıstan və Şərqi Gürcüstanda qalması yuxarıdakı ehtimalı daha da qüvvətləndirir.

Albanların Ay ilahəsinə daha çox sitayiş etmələri haqqında Strabonun verdiyi məlumat qədim türklərin "Ay Tenqri"sinə uyğun gəlir. Belə dəlillər əsasında "alban" etnik adı daşıyanlar türkdilli sayılırlar. Bəzi tədqiqatlara görə, burada yaşayan sakesinlər, onlarla qohum sayılan massagetlər, qarqarlar da türk mənşəli olmuşlar.



Eramızın ilk əsrlərindən başlayaraq Sasani şahlarının göstərişi ilə Albaniyaya bir sıra irandilli tayfalar köçürülmüşdür, III-IV əsrlərdən başlayaraq isə şimaldan, Dərbənd keçidindən yeni türk tayfalarının, o cümlədən hunların, subarların, xəzərlərin, barsillərin və s. Qafqaz Albaniyasına axını başlamışdır. Xüsusən də subar tayfaları Albaniyanın qədim paytaxtı Qəbələ ətrafında məskunlaşmışdılar. Buna görə də erkən orta əsr mənbələri Qəbələni bəzən Qəbələ-Subar adlandırırlar.

Həqiqətən biz tarixçilərin dünya elmi qarşısında məsuliyyətimiz və dünya elminə olan borcumuz tələb edir ki, albanların türklüyü ilə əlaqədar tədqiqatları daha da genişləndirək. Hətta rəsmi sovet ideologiyasının mane olmasına baxmayaraq, qeyd etdiyimiz və başqa rus tədqiqatçıları da çox halda elmi ədalət naminə ALBANLARIN TÜRKLÜYÜNÜ qəbul etmişdilər. Türkləri onların - albanların varisi hesab etmişdilər.

Elmi tədqiqat ciddi məsələdir. Siyasi qadağanlara baxmayaraq, ciddi tezislərin meydana çıxmasının qarşısını almaq isə həmişə mümkün olmamışdır. Əldə əsaslı faktlar xüsusilə arxeoloji, etnoqrafik, numizmatik, dilçilik asarları olduqda görkəmli alimlərin dediyi kimi, "əsaslı faktlara, ciddi maddi nümunələrə söykənən tezislər qəbul edilməli, qarşısında şlyapa çıxarılmalı və təzim edilməlidir".

QAFQAZ ALBANLARININ TÜRKLÜYÜ məsələsi də bu kimi tezislərdəndir. E.ə. III-I minilliklərə aid mixi, yaxud mis mari yazılarda türk mənşəli sözlər, şəxs və yer adlarının müəyyənləşdirilməsi sahəsində ilk elmi addımlar atılmışdır. Məlum olmuşdu ki, türk etnosları ta qədim dövrlərdən (ən azı beş min il əvvəldən) bu ərazinin sakinləri idilər və hələ ən qədim dövrlərdə geniş bir ərazidə türk etnoslarının mütəmadi yerdəyişmələri baş verirdi.

Türk etnoslarının Anadoluda, İran yaylasında, İraqda, hətta Avropada (macarlar), Qafqazda, o cümlədən Azərbaycanda varlığını əsaslı şəkildə təsdiq edən maddi asarlar son 5000 ilə tam təminat verir. Qeyd olunan coğrafiyanın ən qədim aborigenləri türklər və bu ərazidə yaşayan başqa xalqlar olmuşlar. Eramızın IV əsrində xristian dinini rəsmi dövlət dini elan edən Alban dövləti mövcudluğunun sonuna qədər bu və ya digər dərəcədə xristian ideologiyasının təsir dairəsində olmuşdur.

705-ci ildə ərəblərin gəlişinə qədər Albaniya əhalisi üç hissədən- qafqazdilli, türkdilli və irandilli əhalidən ibarət idi. Özündə iyirmidən artıq tayfanı birləşdirən alban tayfa ittifaqının aborigen etnik massivi Qafqaz Albaniyasının ərazisində əsas, üstün massiv olmuşdur. Buna görə də bütün ölkə Albaniya adlandırılmağa başlanmışdı. Hal-hazırda Orta Asiyada konkret olaraq Qazaxıstanda alban adlı türkdilli qəbilə yaşayır.

Ən qədim zamanlardan türklərin yaşadıqları hər yerdə oxşar mədəniyyət izləri, nümunələri bu gün də davam etməkdədir. Bunlardan birini - daş heykəlləri xüsusilə qeyd etmək lazımdır. Bu nümunələr qeyd olunan coğrafiyanın hər yerində, o cümlədən Monqolustandan Rumıniyaya qədər çox geniş bir ərazidə türk qəbilələri arasında yayılmışdır. Qədim türk daş heykəlləri qeyd olunan coğrafiyanın hər yerində türklərin 5000 ildən artıq tarixin silə bilmədiyi izlərdir. Ona görə də ermənilər Qarabağı işğalda saxladıqları illərdə daş heykəllərə də qənim kəsilmişdilər, onları dağıdırdılar.

Son dövrlərdə aparılan sanballı elmi tədqiqatlar nəticəsində Qafqaz albanlarının türk mənşəli və türkdilli tayfa olması birmənalı şəkildə sübut edilmişdir. Albaniyadakı xalqlar və tayfaların ən qədimləri Qafqaz və türk dillərində danışan avtoxton etnoslar olmuşlar.

**_Həsənbala SADIQOV,_**
**_Azərbaycan Respublikasının Əməkdar müəllimi, professor_**

---

*Leyla ABDULLAYEVA:*

## "Ermənistan hələ də anlamır ki, bir ölkə öz ərazisini işğal edə bilməz, yalnız işğaldan azad edər"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in nümayəndəsinin Azərbaycanı sərhəd gərginliyində ittiham edən, ölkəmizin guya beynəlxalq hüququ pozaraq Qarabağ ərazisini işğal etdiyini iddia edən açıqlamasına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva bununla əlaqədar deyib: "Əvvəlcə Ermənistan XİN-inə xatırladırıq ki, bütün bu illər ərzində beynəlxalq hüququn fundamental prinsiplərinin məhz Ermənistan tərəfindən tapdalanması son 30 ildə iki dövlət arasında sərhədin müəyyən olunmamasının əsl səbəbidir.

Ermənistanın 30 ildən sonra, nəhayət, beynəlxalq hüququ yada salması ümumilikdə müsbət haldır. Lakin Ermənistan yenə də beynəlxalq hüquq prinsiplərini özünəməxsus şəkildə başa düşür.

Azərbaycanı guya güc tətbiq edərək əraziləri işğal etməkdə günahlandıran Ermənistan hələ də anlamır ki, bir ölkə öz ərazisini işğal edə bilməz, yalnız işğaldan azad edər. Ermənistanın artıq bu həqiqəti anlaması, yaranmış yeni vəziyyəti qəbul etməsi gərəkdir.

Bir daha Ermənistanı özünün istinad etdiyi beynəlxalq hüquq prinsipləri əsasında münasibətlərin normallaşdırılmasına və hər hansı fikir ayrılıqlarının həllində konstruktivlik nümayiş etdirməyə çağırırıq".

---

# «Qarabağ bölgəsi «yaşıl enerji» zonası kimi dünya üçün bir nümunə olacaq»

### Bu, Prezident İlham Əliyevin daha bir iqtisadi hədəfidir

*Əvvəli 1-ci səh.*

Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

Qarabağda eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bütün bunlardan başqa, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Qarabağ bölgəsində həmçinin daş kömür yataqları mövcuddur. Belə ki, Tərtər rayonunun Çardaqlı kəndi 8,5 milyon ton daş kömür ehtiyatına malikdir.

Bütün bu mənbələr işğaldan azad olunmuş rayonlarımızda yeni enerji layihələrini gerçəkləşdirməyə imkan verir. Həmin istiqamətdə genişmiqyaslı işlər nəzərdə tutulub və onlar ardıcıllıqla həyata keçirilir. "Yaşıl enerji" layihələrinə xarici investorların cəlb edilməsi üçün də artıq müəyyən əməli addımlar atılıb.

Bu ilin may ayında Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın "Tepsco" şirkəti arasında müqavilənin imzalanması işlərin uğurla irəlilədiyinin daha bir təsdiqidir. Nazirliyin bu barədə məlumatında bildirilir ki, müqavilə işğaldan azad edilmiş ərazilərdə külək, günəş, hidro, geotermal və bioenerji kimi bərpaolunan enerji potensialından səmərəli istifadə, enerji səmərəliliyi texnologiyaları, müasir enerji idarəetmə yanaşmaları əsasında regionun enerji təminatını həyata keçirmək məqsədilə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanmasını nəzərdə tutur. Layihə çərçivəsində sahə üzrə beynəlxalq təcrübə araşdırılacaq, sözügedən ərazilərdə iqtisadi inkişaf və əhalinin məskunlaşmasından asılı olaraq enerjiyə tələbat və enerji təchizatı ssenariləri əhatə ediləcək. Həmçinin bərpaolunan enerjinin şəbəkəyə inteqrasiyası, enerji effektivliyi, nəqliyyat, şəhərsalma, tullantıların idarə edilməsi, ağıllı şəbəkələr, yaşıl maliyyələşdirmə və digər məsələlərə baxılacaq.

Qeyd edək ki, 1960-cı ildə təsis olunmuş "Tepsco" şirkəti 90-dan çox ölkədə layihələr həyata keçirib və "yaşıl enerji" sahəsində beynəlxalq təcrübəyə malikdir. Şirkət tərəfindən Yaponiya, Vyetnam, Malayziya, İndoneziya, Braziliya və Tailandda "ağıllı şəhər" layihələri çərçivəsində "yaşıl həllər" təklif edilib.

Bu şirkət Azərbaycanda da bir sıra layihələrin icrasında iştirak edib. Bunlardan "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının tikintisi layihəsində məsləhətçi xidmətlərini, respublikamızın enerji sektorunun sahəvi təhlilini və digər işləri qeyd etmək olar.

Energetika Nazirliyi və "Tepsco"nun yeni müqaviləni videoformatda imzalamasının ertəsi günü Tokioda Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə şirkətinin direktoru, Beynəlxalq Biznesin İnkişafı və Təşviqi İdarəsinin Baş meneceri Hideo Kocima və şirkətin nümayəndələri ilə görüşüb. Görüşdə Prezident İlham Əliyevin ölkəmizin işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı sərəncamında qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Energetika Nazirliyi və "Tepsco" şirkətinin əməkdaşlığı barədə fikir mübadiləsi aparılıb. H.Kocima işğaldan azad edilmiş ərazilərimizdə təmsil etdiyi şirkətin əməkdaşlığa hazır olduğunu bildirib.

Səfir G.İsmayılzadə həmin ərazilərdə "Tepsco"nun fəaliyyətə başlamasını yüksək qiymətləndirib. Şirkətin burada aparacağı fəaliyyətin Azərbaycan-Yaponiya münasibətlərinə xüsusi töhfə verəcəyi vurğulanıb.

Dostlarımızla birlikdə yenidən cənnətə çevirəcəyimiz Qarabağa, doğma yurd-yuvasına qayıdan insanların çırağı əvvəlkindən də gur yanacaq. Prezidentimizin dediyi kimi, biz burada əbədi yaşayacağıq: "Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

**_Flora SADIQLI,_**
**_"Azərbaycan"_**

---

## Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə taktiki təlim keçirilib

2021-ci il üçün birgə fəaliyyət planına əsasən, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə taktiki təlim keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun ümumqoşun poliqonunda keçirilən təlimin əsas məqsədi iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir. Təlim zamanı xüsusi qruplar sutkanın müxtəlif vaxtlarında gizli yollarla şərti düşmənin müdafiəsinin dərinliyinə sızmaq, komanda məntəqəsi və hərbi təyinatlı obyektləri ələ keçirmək üzrə tapşırıqları yerinə yetirib.

Məşğələlərdə əsas diqqət gizli hərəkətin təşkilinə, diversiya qruplarının məhv edilməsinə, düşmən təxribatlarının qarşısının alınmasına və antiterror əməliyyatlarının xüsusiyyətlərinin öyrənilməsinə yönəldilib.

---

# Ölkəmizdə yaradılan yeni turizm strukturları bu sahənin inkişafını sürətləndirəcək

### Palçıq Vulkanları Turizm Kompleksinin təməlinin qoyulması bunu belə deməyə əsas verir

*Əvvəli 1-ci səh.*

Bu bir həqiqətdir ki, müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə uğurlu inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirib. Ölkəmizdə bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişafı istiqamətlərində də təqdirəlayiq işlər görülüb.

Ümummilli Lider Heydər Əliyev ölkəmizdə turizmin inkişafına xüsusi önəm verirdi. Hələ 1999-cu ildə Ulu Öndərin müvafiq fərmanı əsasında qəbul edilmiş "Turizm haqqında" qanun və 2002-ci ildə həyata vəsiqə almış "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" sonrakı dövrlərdə də ölkəmizdə turizm sektorunun inkişafına ciddi təkan verdi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi diqqətdə saxlayır. 2002-ci ildən başlayaraq hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AİTF) keçirilməsi də bu baxımdan ciddi rol oynayır. Prezident İlham Əliyevin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" isə ölkəmizdə bu sahənin inkişafı üçün daha ciddi əsas yaradıb. Dövlət başçısının 2011-ci ili "Turizm ili" elan etməsi də bu sahənin dinamik inkişafına zəmin yaratdı. Ölkəmizdə turizmin inkişafında mühüm nəticələr əldə olundu, əlverişli coğrafi mövqeyi, iqlimi, mədəni-tarixi irsi, qonaqpərvərliyi, daxili sabitliyi, gözəl təbiəti olan ölkəmizin dünyanın turizm mərkəzlərinin birinə çevrilməsinə öz töhfəsini verdi. Bununla bərabər, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan etməsi də mühüm amillərdəndir. Son 14 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınır, beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha da genişlənir. Ölkəmizdə turizmin müalicə-sağlamlıq növünün də inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycan ərazisi planetimizdə palçıq vulkanlarının ən çox yerləşdiyi unikal ərazidir. Azərbaycanda palçıq vulkanları tektonik inkişafdan asılı olaraq, Qobustanda, Abşeron yarımadasında, Abşeron arxipelaqında, Cənub-Şərqi Şirvan düzündə, Şamaxı rayonunda, Ağsu çayının aşağı axarında, az miqdarda Siyəzən və Şabran rayonlarında yayılıb. Azərbaycanda 350-dən çox aktiv palçıq vulkanı mənbələri var ki, bunların da kimyəvi və üzvi tərkibinin zənginliyi onların müalicə məqsədilə istifadə olunmasına imkan verir. Təbiət abidələrinin sayına, çoxçeşidliyinə görə dünyada Azərbaycan ərazisinə oxşar yer yoxdur. Vulkan suları yod, bor, bromla, palçığı isə kimyəvi elementlərlə zəngin olub bir sıra xəstəliklərin (məsələn, mərkəzi sinir sistemi, dəri xəstəlikləri, radikulit, urologiya, ginekologiya və s.) müalicəsində geniş istifadə olunur. Palçıq vulkanlarının ərazisində müasir turizm infrastrukturunun yaradılması Azərbaycanda müalicə-sağlamlıq turizminin mühüm və əlverişli olduğundan xəbər verir.

Bu baxımdan cari il aprelin 22-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməlinin qoyulması Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişafında mühüm hadisələrdəndir.

Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura "Qılınc" palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu yerin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur.

"Qılınc" palçıq vulkanlarının yerləşdiyi ərazidə turizm kompleksinin yaradılmasının bir sıra üstünlükləri var. Yaxınlıqda yerləşən və dünyanın ən böyük vulkanlarından olan "Torağay"a və digər vulkanlara mənzərənin açılması, burada turistlərə gəzinti üçün əlverişli şərait yaradan üç müxtəlif vulkan qrupunun olması, Qobustan qoruğunun yaxınlığında yerləşməsi kimi amillər buranın turistik əhəmiyyətini daha da artırır.

Bildiyimiz kimi, dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətdə fəal işlər görülür və bu sahədə aparılan işlər təqdirəlayiqdir. Hazırda düşmən tapdağından azad olunmuş torpaqlarımızda geniş quruculuq işləri gedir. Yaxın zamanlarda vaxtilə yerlərindən didərgin düşmüş vətəndaşlarımız öz yurdlarına qayıdacaqlar. Qarabağ torpaqları isə öz gözəlliyi ilə bundan sonra dünyanın diqqət mərkəzində olacaq. Dövlət başçısının səyi, xalqımızın gücü nəticəsində bu torpaqlar 30 il bundan əvvəlkindən də yaxşı görkəmə gətiriləcək və dünyanın məşhur turizm məkanlarının sırasında özünə layiqli yer tutacaqdır.

**_Rəhman SALMANLI,_**
**_"Azərbaycan"_**

---

# Ermənistanda seçkiqabağı siyasi qarşıdurma daha da kəskinləşir

Ermənistanda parlament seçkiləri ərəfəsində vəziyyət gərginləşməkdə davam edir. Xüsusilə siyasi situasiya mürəkkəb olaraq qalır. Siyasi böhran və növbədənkənar seçki hazırlığı gündəmi zəbt etdiyindən, iqtisadi problemlər bir qədər diqqətdən kənarda qalıb. Halbuki gərgin proseslər həm də ölkənin iqtisadi sferasında gedir. Çünki dünyada əksər dövlətlərin iqtisadiyyatı pandemiya şokundan çıxmağa hazırlaşdığı bir vaxtda Ermənistan iqtisadiyyatı bunun əksinə gedir.

Müharibəyə qədər irəli sürülən proqnozlarda 2021-ci ilin sonuna qədər Ermənistan iqtisadiyyatının 2019-cu ildəki səviyyələrə qayıda biləcəyi söylənilirdi. Amma indi həmin proqnozun vaxtı 2023-cü ilə qədər uzadılıb. Yəni nəinki bu il, hətta gələn il də Ermənistan pandemiyaya qədərki iqtisadi vəziyyəti bərpa edə bilməyəcək. Bu da seçkiyə təsir edəcək. "Jamnyus" portalı bu fonda yazır: "İyunun 20-də növbədənkənar parlament seçkilərində iştirakını bildirən qüvvələrin mənzərəsi seçiciləri sevindirə bilməz. Onlar faktiki olaraq, "indikilər" və "keçmişdəkilər" arasından seçməli olacaqlar. Ölkədəki siyasi diskurs dəyişməyib".

Baş nazir səlahiyyətlərinin icraçısı Nikol Paşinyanın "Vətəndaş sazişi" siyasi platforması hələlik öz partiya siyahısını hazırlayır. Artıq məlumdur ki, siyahıya özü liderlik edir. Bir zamanların mübahisəsiz avtoriteti və "məxməri" inqilabın hədsiz populyar liderinin şansları nə qədərdir? Bu sualı indi nə ekspertlər, nə də sosial sorğu cavablaya bilir. Ermənistanda ictimai rəyin dəyərləndirilməsi də aparılır. Onlara görə Paşinyanın partiyasına vətəndaşların 27 faizinə qədəri səs verməyə hazırdır. Bu, siyasi qüvvələr arasında ən yaxşı nəticədir. İkinci yerdə keçmiş prezident Rober Koçaryan gəlir, cəmi 7 faizlə.

Ermənistanda siyasi vəziyyəti ən dəqiq əks etdirən dəyərləndirmələr göstərir ki, ölkə vətəndaşlarının 40 faizinə qədəri hələ tərəddüd edir. Bu da o deməkdir ki, məhz onların seçimi həlledici ola bilər. Digər eks-prezident Serj Sarkisyan da seçkilərdə iştirak edəcək. Amma Koçaryandan fərqli olaraq o bildirib ki, artıq yüksək dövlət vəzifəsi tutmaq niyyətində deyil. "Şərəfim var" blokunun siyahısında da onun adı olmayacaq, amma Sarkisyan bu siyasi qüvvəni təqdim edib. Bu da o deməkdir ki, bu və ya başqa şəkildə keçmiş prezident təbliğat kampaniyasında iştirak edəcək.

Ermənistanda rəsmi seçkiqabağı kampaniya hələ başlamayıb, amma bu, heç kimə təbliğat aparmağa mane olmur. Proses faktiki olaraq "keçmişdəkiləri" sərt tənqid edən baş nazir səlahiyyətini icra edən Paşinyanın regionlara səfərlərindən başlayıb. 2018-ci il inqilabından sonra öz siyasi qüvvəsinin üçillik idarəetməsinə baxmayaraq, Paşinyan bütün böyük bəlaların mənbəyi kimi sələflərini görür. O, bu xüsusda bildirir: "Robert Koçaryan və Serj Sarkisyan siz vətən xainisiz! Biz sizin xəyanətinizlə mübarizə aparırdıq. Siz hətta müharibə zamanı öz xəyanətinizə davam edirdiz".

Xatırladaq ki, iqtidar partiyasının seçkiqabağı şüarında gələcəkdən bəhs edilir. Müxalifətçilər isə gələcək haqda danışmamağa üstünlük verir, amma israr edirlər ki, gələcək Paşinyansız olmalıdır. Erməni politoloq Aleksandr İsgəndəryan deyir ki, Robert Koçaryan bütün sahələrdə acınacaqlı nəticələrə gətirib çıxarmış idarəetmə böhranı haqda danışır. Eks-prezident açıq şəkildə Paşinyanı İkinci Qarabağ müharibəsi zamanı xəyanətdə ittiham edir və vətəndaşları inandırır ki, onun gələcək idarəetməsi daha ciddi problemlərə gətirib çıxaracaq: "Düzdür, hansı tədbirlərin və resursların köməyi ilə vəziyyəti düzəltmək niyyətində olduğunu Robert Koçaryan dəqiqləşdirmir. Siyasətçi sadəcə böhranı çözmək təcrübəsindən danışır və öz keçmiş nailiyyətlərini vurğulayır. Amma əhalinin əhəmiyyətli hissəsi üçün onun idarəetməsi korrupsiya, polis özbaşınalığı, o cümlədən də 2008-ci ilin martında 10 nəfərin ölümü ilə nəticələnən mitinqi dağıtması ilə assosiasiya olunur. Nəticədə bütün rəqiblərdən nifrət ritorikası daşır. Hamı hakimiyyəti, hakimiyyət isə "keçmişdəkiləri" tənqid edir".

Ermənistan hakimiyyətinin seçkiyə getmək qərarı müharibədən sonrakı siyasi böhrana nöqtə qoymaq cəhdidir. Müxalifət isə böhranı "misilsiz" adlandırıb. Amma hətta bu halda belə iyirmiyə yaxın birləşmiş müxalifət partiyası hakimiyyətin istefasına nail olmaq üçün küçə aksiyalarına əhəmiyyətli sayda insan səfərbər edə bilmədi.

Seçkilər indi Ermənistanın əsas gündəmi olmaqla siyasi qarşıdurmaları daha da gərginləşdirib. Görünən həm də odur ki, seçkilər böhranlara son qoymayacaq. Bu mənada istisna olunmur ki, siyasi qüvvələr arasında olan gərginlik mövcud böhranları seçkidən sonra daha dərinləşdirəcək.

**_Elçin CƏFƏROV,_**
**_"Azərbaycan"_**

# Xalq rəssamı Tahir Salahov - təsviri sənətin görkəmli nümayəndəsi

*Əvvəli 1-ci səh.*



Keçmiş Sovet İttifaqında və Qərbdə Tahir Salahov sərt realizm cərəyanının əsas yaradıcısı kimi qəbul olunmuşdur. Azərbaycan təsviri sənətində Soltan Məhəmməd Təbrizi miniatür məktəbinin yaradıcısı, Bəhruz Kəngərli realist rəssamlıq məktəbinin banisi, Əzim Əzimzadə mahir karikatura ustadı, Toğrul Nərimanbəyov böyük kompozisiya rəssamı, Səttar Bəhlulzadə rəngkarlığın şairi, Mikayıl Abdullayev, Oqtay Sadıqzadə portret ustası, Maral Rəhmanzadə mənzərə rəssamı, Elmira Şahtaxtinskaya plakat rəssamı, Fərhad Xəlilov avanqard məktəbin rəhbəri, Arif Hüseynov qrafika rəssamlığının istedadlı yaradıcısı, Cavad Mircavadov modernizmin, Arif Əziz rəngkarlıqda "bəyaz dünya"nın, Sakit Məmmədov opalizm xəttinin qurucusu, Ülviyyə Həmzəyeva mifoloji baxışlara malik istedadlı rəngkar kimi böyük sənətdə özlərinə məxsus yol açmış, tanınmış və şöhrət qazanmışdılar. Xalq rəssamı Tahir Salahovun rəngkarlıqda açdığı sərt realizm üslubu tamamilə orijinal olub, Azərbaycan təsviri sənətini yeniləşdirmiş və daha da müasirləşdirmişdir. Haqlı olaraq bu görkəmli sənətkarı orijinallığına və böyük xidmətlərinə görə dünyanın ən məşhur rəssamları ilə müqayisə edirlər. İftixar hissi ilə demək olar ki, onun adı Van Qoq, Pikasso, Klod Mone, Xaçisika Xakusai, Salvador Dali, Zurab Sereteli, Ayvazovski, Repin, Surikov və digər dünya şöhrətli sənətkarlarla birlikdə çəkilir. Azərbaycan rəssamlığında da Tahir Salahovun xüsusi yeri və özünəməxsus mövqeyi vardır. Obrazlı şəkildə demək olar ki, Xalq rəssamı Tahir Salahov Azərbaycan təsviri sənətinin inkişafında Bəhruz Kəngərlidən sonrakı və Fərhad Xəlilovdan əvvəlki mərhələnin təkrarsız-bənzərsiz zirvəsidir. Fikrimizcə, Azərbaycan musiqi sənətində Qara Qarayev, şeirdə Səməd Vurğun və Rəsul Rza, heykəltaraşlıqda Ömər Eldarov hansı zirvədə dayanırsa, Tahir Salahov da sənəti baxımından həmin yüksək mövqedə qərar tutmuşdur. Tahir Salahov Azərbaycan təsviri sənətinə dünya şöhrəti qazandırmış görkəmli rəssamdır.

Hələ sovet hakimiyyəti illərindən etibarən böyük fırça ustası Tahir Salahov rəssamlıq sənəti üçün təsəvvür edilməyən çətin mövzularla həyatın görünməyən və ya az görünən tərəflərini tünd boyalarla sənətdə ifadə etmək vəzifəsini ciddi bir iradə ilə həyata keçirmişdir. İstifadə etdiyi rənglərin tündlüyünə və ya təsvir etdiyi mövzuların gərginliyinə, həmçinin rəsmlərindəki çətin həyat notlarının bədii ifadəsinə istinad edərək, Tahir Salahovu sərt realizm cərəyanının yaradıcısı kimi qəbul edirlər. Hətta Azərbaycanda və keçmiş Sovet İttifaqı miqyasında rəngkarlıqda tədricən ardıcıllarının, davamçılarının, yaxud bənzərlərinin meydana çıxması ilə təsviri sənətdə Tahir Salahovun "surovıy realizm" - sərt realizm məktəbi yaranmışdır.

Xalq rəssamı Tahir Salahovun timsalında meydana çıxmış "surovıy stil" - "sərt üslub" anlayışı sənət nəzəriyyəsi baxımından "sərt realizm" mənasını daşıyır. Metod və üslub ədəbiyyat və sənət cərəyanlarının istiqamətini müəyyən edən "izmin" əsas təzahür formalarından biri olduğu üçün Tahir Salahova məxsus "sərt üslub" da elmi şəkildə "sərt realizm" mənasını bildirir. Tahir Salahov özü də "sərt realizm" yaradıcılıq üslubunu və ya cərəyanını stalinizmdən sonra meydana çıxmış və həyat həqiqətlərinə əsaslanan bir yaradıcılıq istiqaməti hesab etmişdir. Onun fikrincə, "bu istiqamət Sovet İttifaqında 1950-ci illərin sonlarında, Stalinin ölümündən sonra yaranmışdır. O vaxta qədər hamı belə alışmışdı ki, təsviri incəsənət insanı şadlandırmalıdır. Ancaq bizim nəsil "istiləşmə" dövrünü (Xruşşov mərhələsini - İ.H.) keçmişdir və həqiqəti, o cümlədən sərt gerçəkliyi göstərmək istəmişdir. Lakin bu sərtlik - o da nikbinlikdir, ancaq həyatın reallıqlarından doğulur... Tədricən bu məktəb qəbul olundu".

Qüdrətli fırça ustası Tahir Salahov əvvəl SSRİ məkanında və Azərbaycanda, sonra isə Qərbdə və dünyada "surovıy stilin" - sərt realizmin əsas yaradıcısı hesab olunmuşdur. Bu, əslində sosialist realizmi ilə eyni olmayan, həyatın yalnız nikbin meyillərini deyil, cəmiyyətin sərt üzünü, insanın və onu əhatə edən mühitin gərgin məqamlarını da sənətdə canlandıran yeni tipli sənət istiqamətidir. Lakin Tahir Salahovun müraciət etdiyi mövzular sosialist realizminin "ənənəvi mövzu dairəsinə" uyğun olduğuna, yaradıcılığında dövr üçün aktual olan neft və fəhlə mövzuları üstünlük təşkil etdiyinə görə onun sovet təsviri sənətinin vahid yaradıcılıq metodundan fərqli bir sənətkar olduğu zahirən heç kəsin ağlına belə gəlməmişdir. Xüsusən XX əsrin altmışıncı illərindən sonra "surovıy realizm" üslubu sosialist realizmi yaradıcılıq metodunun təzahür formalarından biri kimi təsəvvür olunmuşdur. Əslində isə Tahir Salahovun yaradıcılığına aid edilən "surovıy stil" - "sərt realizm" anlayışı ədəbiyyatda və incəsənətdə sovet hakimiyyətinə qədər mövcud olmuş tənqidi realizm məktəbi mənasını daşıyan və sovet gerçəkliyi üçün səciyyəvi olmayan bir sənət cərəyanı idi. Tahir Salahov istehsalat mövzusu fonunda yaratdığı böyük sənət şedevrləri ilə sosialist realizmi şəraitində tənqidi realist istiqaməti inkişaf etdirməyi bacarmışdır. Sadəcə vahid sosialist realizmi yaradıcılıq metoduna əsaslanan keçmiş sovet ideologiyası zamanında tənqidi realist olmağı açıq etiraf etmək mümkün deyildi. Bununla belə, Tahir Salahovun tənqidi realist rəssam olduğunu qeyri-rəsmi şəkildə olsa da, mütləq əksəriyyət həmişə qəbul etmişdir. Görkəmli sovet rəssamlarından Pavel Nikonov, Viktor İvanov, Qeliy Korjev və başqaları da sərt üslubda orijinal rəsm əsərləri çəkmişlər. Lakin bütövlükdə rəssamlıqda keçmiş ittifaq miqyasında sərt realizm sənət məktəbini yaratmaq Tahir Salahova məxsus mühüm xidmətdir.

Boyakarlıq sənətinin ecazkar dili ilə ciddi ictimai mətləbləri yüksək səviyyədə ifadə etməyi bacarmaq Tahir Salahov sənətinin özünəməxsusluğunu müəyyən edir. Tahir Salahov təsviri sənətdə rəsm əsərləri vasitəsi ilə fikir, düşüncə, ideya, mövqe bildirmək missiyasını həyata keçirmənin qüdrətli yaradıcısıdır. Onun hər rəsm əsərinin sadəcə olaraq yaxşı, cəlbedici mövzusu və ya görüntüsü yox, bununla bərabər, daha çox öz mənası, fəlsəfəsi vardır. Bu mənada Tahir Salahov mütəfəkkir rəssamdır. O, mütəfəkkir sənətkar olduğunu yalnız sənət haqqındakı elmi-nəzəri görüşləri ilə deyil, təsviri sənətin özü vasitəsilə, rənglərin dili ilə mənalandırdığı sərt və müdrik mesajlarla nümayiş etdirir.

Sərt cizgilər, tünd rənglər Tahir Salahovun rəsm əsərlərinin əsas bədii ifadə vasitəsidir. Seçilmiş mövzuların və obyektin ciddiliyi ilə rənglərin sərtliyi Tahir Salahovun sənətində bir-birini üzvi surətdə tamamlayır. Tahir Salahov dalğanı, qasırğanı, tufanı, vulkanı, təlatümü öz rəngində, bütün təbiiliyi ilə çəkməyi bacarmışdır. Adam onun bir-birindən fərqli mövzularda çəkilmiş əsərlərinə baxanda özünü sanki həmin əsərlərdə təsvir olunan mühitdə və ya aurada hiss edir. Ona görə də Tahir Salahovun çəkdiyi rəsm əsərləri kağızdan, kətandan qəlbə, düşüncəyə yol tapa, tamaşaçı mühitinə fəal təsir göstərə bilir.

Xalq rəssamı Tahir Salahovun sənəti əslində onun yaradıcılığında aparıcı olan aşağıdakı üç rəngin harmoniyası üzərində qurulmuşdur: qara, qırmızı və ağ. Doğrudur, Tahir Salahov digər rənglərdən yerli-yerində istifadə etməkdə də məharət göstərmişdir. Lakin əsərlərindəki digər rəng effektləri onun sənəti üçün xarakterik olan qara, qırmızı və ağ rənglərin kölgəsində qalmış və bu əsas rənglərin "əlavəsi", çaları kimi köməkçi rənglər funksiyasını daşımış, ayrı-ayrı əsərlərdə aparıcı rənglərin ifadə etdikləri mənaların daha aydın və cəlbedici şəkildə çatdırılmasına yardımçı olmuşlar.

Başlanğıc mərhələdə Tahir Salahov rəssamlıq fəaliyyətinə nisbətən açıq rəngdə çəkdiyi əsərlərlə başlamışdır. Onun 1957-ci ildə Surikov adına Rəssamlıq İnstitutunda tələbə ikən diplom işi kimi çəkdiyi "Növbədən qayıdarkən" adlı rəsm əsərində tündvari açıq rənglərdən istifadə olunmuşdur. Əslində diplom işi kimi əla qiymətə layiq görülmüş "Növbədən qayıdarkən" rəsmi Tahir Salahovun yaradıcılığı üçün xarakterik olan bir çox keyfiyyətləri özündə cəmləşdirir. Əvvəla bu, sonralar Tahir Salahovun yaradıcılığında geniş yer tutan Xəzər mövzusunun mükəmməl bir başlanğıcıdır. İkincisi, nisbətən açıq rəngdə çəkilməsinə baxmayaraq, bu əsərdə işdən qayıdan insanların yorğunluğu, gərginliyi və iradəsi bütün sərtliyi ilə ifadə olunmuşdur. "Növbədən qayıdarkən" rəsmi Tahir Salahovun yaradıcılığındakı sərt üslubun ilk klassik nümunəsidir. Üçüncüsü, əsasən zahirən açıq boya ilə çəkilmiş bu əsərdə sonralar Tahir Salahovun yaradıcılığında üstünlük qazanmış qara, qırmızı və ağ rənglərin ilkin cizgilərini görmək mümkündür.

Diqqətlə nəzər salınarsa, Tahir Salahovun yaradıcılığında uzun dövr ərzində qara rəngdən istifadə edilməsi birincilik qazanmışdır. Sənətkarın daha çox müraciət etdiyi Xəzər nefti, istehsalat mövzusu, neftçi və fəhlə obrazları ilə yağlı qara boyanın yaratdığı effektlər bir-birini tamamlamışdır. Həm də Tahir Salahovun yaratdığı sərt realist üslub üçün də açıq rənglərin fonunda tünd və qara rənglərdən yaradıcı şəkildə istifadə etmək yerinə düşmüş, müraciət olunan mövzunun və ya obrazın əsas cizgilərini canlandırmağa xidmət etmişdir. Məşhur "Səhər eşalonu" (1958), "Neftçi" (1959), "Təmirçilər" (1960), "Qara Qarayev" (1960), "M.Ə.Sabir" (1962), "Qız qalası" (1969), "Nardaran kəndi" (1974), "Venetsiya. Böyük kanal" (1979), "Babək" baletinə eskiz" (1983), "Çikaqo" (1987), "Parisin payız görkəmi" (1989), "Firudin Şuşinskinin portreti" (1994) və sair kimi rəsm əsərlərində qara və ya tünd rənglər mövzunun bədii həllində aparıcılıq təşkil etmişdir. Nəticə etibarilə qara rəng Tahir Salahov sənətində həyatın dərinliklərinin təsvirinə, cəmiyyət hadisələrinə sərt sənətkar mövqeyinin ifadə olunmasına münasib şərait yaratmışdır. Qara rəngin yaratdığı ovqat Tahir Salahov sənətində sərtlik, ciddilik, gerçəklik kimi mətləbləri ifadə edir. Ağ rəngdən isə Tahir Salahov qara rəngdə çəkilmiş əsərləri üçün təzad yaratmaq üçün məharətlə istifadə etmişdir. Məhz ağ rənglə qara rəngin yaratdığı soyuq effekt, bədii təzad Tahir Salahovun yaradıcısı olduğu sərt realizmin əsas ifadə vasitəsidir.

Tahir Salahov sənətində qırmızı rəngin də özünəməxsus yeri və mənası vardır. Doğrudur, Tahir Salahovun əsərlərində digər rənglərlə, xüsusən ağ və qara rənglərlə müqayisədə qırmızı rəng nisbətən az istifadə edilmişdir. Halbuki tünd qırmızı rəng Tahir Salahovun sərt realizmi - tənqidi realizmi üçün daha münasib rəng hesab oluna bilərdi. Ancaq Tahir Salahov rəsm əsərlərini tünd qırmızı rənglə boyamaqdansa, fikirlərini yerli-yerində, dozada, kiçik miqyasda işlətdiyi qırmızı rənglə ifadə etməyə üstünlük verir. Məsələn, onun "Neftçi" adlı rəsm əsərində (1959) bütün cizgiləri mazut rəngində olan Bakı neftçisinin yalnız müştüyünün qırmızı rəngdə olması əslində məcazi mənada sovet dövründə Azərbaycan neftinin sümürülüb aparılması mətləbini çox dolğun şəkildə ifadə edir. Lakin sovet incəsənətində isə neftçinin qırmızı müştüyü neft sənayesində çalışan qırmızı bolşevizmin əsas daşıyıcısı olmuş fəhlə sinfinin zəhmətinin nikbin bədii ifadəsi kimi başa düşülmüşdür. Yaxud məşhur "Bəstəkar Dmitri Şostakoviçin portreti" əsərində (1976) təsvir olunmuş qırmızı divan bu böyük sənətkarın narahat həyatını, onun sanki qan çanağı üstündə oturması fikrini dəqiq şəkildə mənalandırır. Tamaşaçı dalğın vəziyyətdə qırmızı divanın üstündə oturmuş böyük bəstəkarın portreti ilə onun arzu etdiyini yazmaqda və ya ifa etməkdə çətinlik çəkdiyini başa düşə bilir. Və yaxud sərt rənglərlə və cizgilərlə çəkilmiş "Xalq şairi Rəsul Rzanın portreti"ndə (1971) onun kitabının cildinin qatlanan hissəsində yerləşdirilmiş kiçik qırmızı qələm azadlığa, müstəqilliyə meyilli sənətkarın əsərlərində örtülü şəkildə qan qoxulu ciddi mətləblərin, ictimai fikirlərin ifadə olunduğunu nəzərə çarpdırır. Bir sıra rəsm əsərlərində qırmızı rəngdən istifadə etməsə də, yaxud edə bilməsə də görkəmli sənətkar qurduğu kompozisiyaya müxtəlif vəziyyətlərdə təqdim olunmuş, yaxud emalatxana şəraitində bankanın içərisinə salınmış qırmızı fırçanı daxil etməklə rəssam kimi düşüncəsini həmin əsərdə hiss etdirməyə nail olmuşdur. Belə məqamlarda qırmızı rəngli fırça sanki döyüşçünün atılmamış, ehtiyat üçün saxladığı patron təsirini bağışlayır. Bu formatda Tahir Salahovun rəsmlərində fırçanın ucu boyda olan qırmızı rəngin daşıdığı məna təqdim olunan rəsm əsərinin zahiri görkəmində yox, assosiativ şəkildə, şüuraltı səviyyədə sənətin mahiyyətində öz əksini tapır. Məsələn, "Bəstəkar Qara Qarayevin portreti" adlı möhtəşəm rəsm əsərində (1960) qırmızı rəng yoxdur. Lakin Tahir Salahov ustad sənətkara məxsus royalın üstündə özünün istifadə etdiyi fırçalardan birini təsvir etməklə, həm də ən alt qatda olan qırmızı rəngli fırça vasitəsilə dünya şöhrətli bəstəkarın yaradıcılığının dərin fəlsəfəsini nəzərə çarpdırmağa müvəffəq olmuşdur. Bu rəsm əsərindəki rənglərlə və xüsusən qırmızı rənglə Qara Qarayevin məşhur "İldırımlı yollarla" baletinin ideyası arasında mükəmməl bir harmoniya vardır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin portreti əsərində də Tahir Salahov rənglərin mütənasib harmoniyasından şəxsiyyətin qüdrətini əks etdirmək üçün bacarıqla istifadə etmişdir. Bakı şəhərinin seçilmiş fraqmentlərinin fonunda çəkilmiş portretin ətrafındakı pəncərədən nəzərə çatdırılan tündvari Xəzər görüntüləri Ulu Öndərin Azərbaycan üçün çətin bir dövrdə hakimiyyətə gəldiyini göstərir. Çox qətiyyətli duruşu və iti baxışlarının təsviri onun Xəzərin bulanıq səmasını dəyişib açmağa qadir olan dövlət başçısı olması fikrini ifadə edir. Prezident Heydər Əliyevin tünd qırmızı qalstuku isə onun dönməz mövqeyini, istənilən çətin mübarizədə qalib gəlmək əzmini mənalandırır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də həmişə Tahir Salahovun sənətini və şəxsiyyətini yüksək qiymətləndirmiş, ən çətin məqamlarda ona dəstək olmuşdur.

Tahir Salahov Fikrət Əmirovun portretini çəkərkən (1967) də bu görkəmli sənətkarı qırmızı köynəkdə təqdim etməsi səbəbsiz olmayıb, onun yaradıcılığının qayəsini, xüsusən vətəndaş sənətkarın zamanla mücadilədə olması mətləbini mənalandırmışdır. Abşeron motivləri silsiləsində keçən əsrin altmış-səksəninci illərində çəkilmiş çoxsaylı rəsmlərin mütləq əksəriyyətində də cüzi şəkildə istifadə olunan, bəzən hətta nöqtə boyda qeyd edilən qırmızı rəngdən Azərbaycanın sərvətlərinin özünə qismət olmaması, yaxud zor dönəmdə xalqın öz sərvətlərinə sahib olmasının çətinlikləri örtülü vasitələrlə öz əksini tapmışdır. Tahir Salahovun yaradıcılığında sovet dövrünə aid boş qalmış Abşeron kəndləri, küçələrində adam görünməyən Bakıətrafı bağlar, uçub dağılmaq təhlükəsi içində olan qədim Abşeron abidələri kətan üzərinə köçürülərkən tünd, sərt rənglər və cizgilər ön mövqeyə çəkilmişdir. Tahir Salahov bu qəbildən olan sərt rənglərlə çəkilmiş əsərlərində yalnız imzası kimi "T.Salaxov" sözlərini qırmızı rənglə yazmaqla kifayətlənmişdir ki, əslində bu da sənətkarın müəllifi olduğu rəsm əsərində vətəndaş narahatlığının ifadə edildiyinə mənalı bir işarədir. Tahir Salahovun natürmort çəkmək üçün də iri qırmızı bibəri seçməsi tünd qırmızı rəngin onun yaradıcılığındakı ideya-fəlsəfi funksiyasını aydınlaşdırmağa bir daha kömək edir. Bütün bunlara görə Xalq rəssamı Tahir Salahovun əsərlərindəki fikirləri, mətləbləri, ideyaları müəyyən etməkdə qırmızı rəng açar rolunu oynayır. Qırmızı rəngin çalarlarını düzgün müəyyən etmədən əsərlərində Tahir Salahovun nə demək istədiyini tam mənası ilə tapmaq, dərk etmək çətindir. Qırmızı rəng Tahir Salahovun rəsmlərinin fəlsəfəsini ifadə edir.

Müşahidələr göstərir ki, Tahir Salahovun yaradıcılığında tünd qırmızı rənglə yanaşı, açıq qırmızı rəngin məna çalarında fərqlər vardır. Belə ki, "Ana" portretini çəkərkən, qızı balaca Aydanı kətan üzərində canlandırarkən (1965-1967), "Koroğlu" operası üçün geyim eskizləri hazırlayarkən (1975) görkəmli rəssamın istifadə etdiyi açıq qırmızı rənglər milli düşüncəni, xalqın qüdrətini, ümidləri və arzularını mənalandırmağa xidmət edir. "Çiçəkləyən nar" rəsmindəki (1978) yaşıl yarpaqların arasında işıq kimi yanan qırmızı çiçəklərdə də nikbin notlar aşkar hiss olunur. Rəssam asfalt rəngində olan bankada yetişdirilən çiçəkləmiş nar ağacının timsalında, ən zor şərtlər altında olsa da, mənsub olduğu xalqın ən çətin şəraitdə də yaşamaq əzminin mövcudluğuna, tərəqqi edəcəyinə inamını nəzərə çarpdırmışdır. "Naxçıvan dağları" rəsmində (1971) qırmızı rəng Kiçik Qafqaz dağlarının Naxçıvan silsiləsinin özünəməxsus fərqli görkəmi ilə yanaşı, həm də qürur və əzəmət mənalarını ön mövqeyə çıxarır. Başqa məqamlarda isə Tahir Salahovun rəsm əsərlərinin ətəyində qırmızı rəngdə yazdığı "T.Salaxov" imzasından həm də keçmiş sovet dövründə senzuranı yayındırmaq üçün orijinal priyom, düşünülmüş üsul kimi də faydalanılmışdır. Əslində isə familiyanı bildirən sözlərin rəngində də mövzu ilə bağlı notlar ifadə olunmuşdur.

Demək olar ki, bütün planeti gəzmiş, dünyanı görmüş, geniş dünyagörüşə malik Tahir Salahovun beynəlxalq mövzularda çəkdiyi çoxsaylı əsərlər ilk növbədə Azərbaycan xalqını Yer kürəsinin müxtəlif guşələrində yaşayan ölkələrin, xalqların, insanların həyatı ilə tanış etməyə hesablanmışdır. Bununla belə o, bilərəkdən xarici mühitə köçürülmüş mövzular vasitəsilə keçmiş sovet cəmiyyətindəki mənfi halları, nöqsanları tənqid etmək, yaxud milli azadlıq və müstəqillik düşüncələrini mənalandırmaq məqsədini də izləmişdir. Məsələn, Çexoslovakiya həyatından çəkilmiş rəsm əsərində Praqa şəhərinin təsvirindən daha çox 1961-ci ildə sovet qoşunlarının Mərkəzi Avropadakı işğalçılıq niyyətlərinə etiraz notları öz əksini tapmışdır. Bu əsərdə uzaqdan qara kabus kimi görünən vahiməli tankın gəldiyi küçənin döngəsində təsvir olunmuş "Stop" (Dur!) - yol nişanı hərəkəti tənzimləyən işarəni bildirən tablodan çox işğalçılıq, təcavüzkarlıq niyyətlərinə son qoyulması fikrini mənalandırır. Yaxud onun 1961-1967-ci illərdə çəkilmiş əsərlərindəki tünd görkəmin İtaliya, Almaniya və Praqa motivlərinin təsvirlərinin Bakı şəhəri ilə səsləşməsi sosialist realizmi metodu dövründə Vətənlə, doğma ölkə ilə bağlı məsələlərin beynəlxalq mövzular vasitəsilə canlandırıldığını bir daha təsdiqləyir.

Planetin müxtəlif ölkələrində təşkil edilmiş sərgilər vasitəsilə görkəmli Azərbaycan rəssamı, qüdrətli fırça ustası Tahir Salahovu bütün dünya tanımışdır. Deməli, Tahir Salahovun sənəti vasitəsilə beynəlxalq aləm həm də Azərbaycanı bir daha tanımaq imkanı qazanmışdır. Mövzusundan, üslubundan, yanaşma tərzindən asılı olmayaraq, Tahir Salahovun əsərlərinin əksəriyyətində mütləq bir parça, bir ovuc Xəzər effekti, bir cizgi Abşeron rəngi, ovqatı təsvir edilmişdir. Tahir Salahov milli təsviri sənətimizdə möhtəşəm bir Xəzər epopeyasının, yaxud Abşeron dastanının yaradıcısıdır. Mahir rəssamın nadir fırçasından çıxmış "Təmirçilər" (1960), "İşdən qayıdarkən" (1957), "Səhər eşelonu" (1958), "Abşeron qadınları" (1967), "Xəzərdə" (1967), "Nardaran kəndi" (1974), "Dənizdə buruqlar" (1968), "Xəzərdə qayalar" (1969), "Xəzərdə axşam" (1972), "Eyvanda" (1977), "Mərdəkan qalası" (1978), "Xəzərdə tufan" (1978), "Nardaranda küçə" (1978), "Xəzərdə sahil" (1980) və sair kimi rəsm əsərlərindən hər biri təsviri sənətimizdə hadisə kimi qarşılanmışdır. Əslində Tahir Salahovun tünd rənglərlə ifadə olunan sərt realizmində Abşeron cizgiləri, Xəzər motivi, əncir ağacı notları həyati gerçəklikləri, aydınlığı, Vətən sevgisini, ümidi və inamı, mübarizə əzmini, iradəni dolğun şəkildə ifadə edərək mənalandırır.

Bununla belə, Tahir Salahov sənətində, xüsusən son dövrlərdəki rəsmlərində müəyyən lirizm, romantika elementləri də müşahidə olunur. Bu isə öz növbəsində Tahir Salahovun rəsm əsərlərində ilk növbədə ağ rəngdən istifadə üçün zərurət yaradır. Sovet hakimiyyəti illərində Tahir Salahovun yaradıcılığında ağ rəngin bir neçə əsas çaları diqqət mərkəzində olmuşdur. Görkəmli rəssam ağ rəngdən daha çox Abşeron peyzajı mövzusunda çəkdiyi rəsmlərdə istifadə etmişdir. Ağ rəng Tahir Salahova əyri-üyrü Abşeron küçələrini, əncir bağlarını, üfüqi, çiçəkləri göstərmək üçün lazım olmuşdur. Bunlardan başqa, Tahir Salahov tünd rəngdə təqdim etdiyi hər hansı bir rəsm əsərində, məsələn, "Abşeron qadınları" rəsmində diqqəti hər hansı məqama yönəltmək, qadın obrazlarını fərqləndirmək üçün ağ effektə də müraciət etmişdir. Tahir Salahovun rəsmlərində tünd, qara rənglər içərisində bir az ağ rəngdə təsvir heç vaxt təsadüfi olmayıb, tamaşaçıya əsas mətləbi "diktə" etməyə xidmət göstərmişdir. Bundan başqa, sərt realizm üçün qara və ağ rənglər təzad yaratmaq üçün də lazım olmuşdur. Yəni Tahir Salahovun rəsmlərində ağ rəng əslində qara rəngi daha qabarıq göstərməyə xidmət etmişdir. Məsələn, "Aydan rəsm çəkir", "Köhnə Ramana", "Xəzərdə qayalar" rəsmlərində ağ rəng təzadı və işığı mənalandırmağa yol açır. Müstəqillik illərində isə Tahir Salahovun yaradıcılığında ağ rəng mənalı bir al rəng çalarında çıxış edir. Tahir Salahovun 2007-ci ildə çəkilmiş "Odlar yurdu" kompozisiyasına daxil olan "Atəşpərəstlərin məbədi", "Xəzər bu gün", "Qız qalası" silsiləsində ağ rəng - al rəng effektinə çevrilmişdir. Bu rəsm əsərlərində ağ rəng tünd qırmızı rəngin al qırmızı rəng kimi məna ifadə etməsinə şərait yaratmışdır. Burada ağ rəng çaları vasitəsilə yaradılmış al qırmızı rəng Azərbaycan Respublikasının dövlət müstəqilliyi illərindəki böyük inkişafını və təntənəsini bütün reallığı ilə diqqətə çatdırmağa şərait yaradır. "Bağ çiçəkləri" (2005) rəsm əsərindəki ağ çiçəklər isə kompozisiyaya daxil olan digər rənglərdəki çiçəklərlə harmoniyanı nəzərə çarpdırmağa xidmət edir.

Beləliklə, müstəqillik dövründə qüdrətli bir sənətkar kimi Tahir Salahovun özünəməxsus üslubunu əvvəllər onun yaradıcılığında üstünlük təşkil etmiş sərt realizmlə lirik-romantik ünsürlərin qeyri-bərabər şəkildə növbələşməsi müəyyən etmişdir. Diqqət edilsə, son onilliklərdə Tahir Salahovun yaradıcılığında tünd rənglərlə müqayisədə açıq qırmızı və ağ rəngdən istifadə ilə yaradılmış rəsm əsərləri çoxluq təşkil etmişdir. Hətta Tahir Salahovun rəsmlərində yalnız son illərdə meydana çıxmış yaşıl rəng də onun sərt tünd rənglər epoxasından uzaqlaşmaqda olmasının göstəricilərindən biridir. Bütün bunlar Tahir Salahovun yaradıcılığında sərt realizmdən romantizmə dönüşün baş verdiyini nümayiş etdirir. Daha doğrusu, müstəqillik illərində Xalq rəssamı Tahir Salahov realist-romantik sənətkar kimi ölkəmizin yeni dövranını və müasir insanı ilhamla vəsf etməyə üstünlük vermişdir.

Azərbaycan Respublikasının Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahov uzun illər Azərbaycan və SSRİ Rəssamlar İttifaqına sədrlik etmiş, Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti kimi elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirmişdir. Qüdrətli fırça ustası Tahir Salahov ustad bir müəllim kimi yeni nəsil rəssamların yetişib formalaşdırılmasına misilsiz töhfələr vermişdir. O, Azərbaycanın və dünyanın bir çox ölkələrində, o cümlədən Rusiyada, Fransada, Almaniyada, İspaniyada, Bolqarıstanda, Avstriyada və başqa ölkələrdə beynəlxalq akademiyaların, elmi və yaradıcılıq qurumlarının üzvü seçilmiş, yüksək mükafatlara layiq görülmüşdür. SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. Tahir Salahov XXI əsr dünya təsviri sənətinin ən görkəmli və böyük nüfuza malik nümayəndələrindən biri idi.

Azərbaycanda Xalq rəssamı Tahir Salahovun çoxcəhətli elmi-pedaqoji və rəssamlıq fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Tahir Salahov ölkəmizin ən yüksək mükafatı olan Heydər Əliyev ordeni ilə təltif olunmuşdur. Müstəqil dövlətimizin "İstiqlal" ordenini daşıyan Tahir Salahov həm də Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdçüsü idi. Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı Tahir Salahov eyni zamanda Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüşdür. Görkəmli rəssam Azərbaycan Milli Elmlər Akademiyasının Üzeyir Hacıbəyov adlı mükafatını almışdır. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2018-ci ilin noyabr ayında Xalq rəssamı Tahir Salahovun 80 illik yubileyinin akademiya ictimaiyyəti ilə birlikdə geniş elmi konfrans formatında qeyd olunması dünya şöhrətli böyük rəssamla alimlərin çoxillik dostluğunun və səmərəli əməkdaşlığının yaddaqalan hadisəsi idi.

Xalq rəssamı Tahir Salahov Azərbaycan təsviri sənətinə özünəməxsus sənət düşüncəsi və bənzərsiz rəngləri ilə Abşeron torpağından, Xəzərdən gəlmişdir. Tahir Salahov görkəmli bir sənətkar kimi sanki böyük sənət aləmində Xəzərdən doğan Günəş kimi parlamışdır. Ümimiyyətlə, Tahir Salahovun böyük istedadının məhsulu olan rəsm əsərlərindən Xəzər qoxusu, neft iyi və əncir ətri gəlir. Xəzər dənizi və Abşeron torpağı Tahir Salahov üçün ölkənin sadəcə bir parçası deyildir, geniş mənada günəşli ana Vətənin ümumiləşdirilmiş rəmzidir. Günəş həyatı işıqlandırdığı və cana gətirdiyi kimi, Tahir Salahovun əsərləri də cəmiyyətin dərin qatlarına və mühüm mətləblərinə gur işıq salır, həyata, insanlığa, düşüncəyə, dünyaya və ölkə reallıqlarına aydınlıq gətirir, həmişə işığa və inkişafa çağırır.

Bənzərsiz sənət əsərləri Xalq rəssamı Tahir Salahova əbədiyaşarlıq qazandırmışdır. Dahi rəssamın hər bir əsəri onun müəllifinin ölməz sənətinin və mənsub olduğu xalqın böyük istedadının əbədiyyət vəsiqəsidir. Xalq rəssamı Tahir Salahovun parlaq adı Azərbaycan incəsənətinin tarixində və xalqımızın yaddaşında milli təsviri sənətin əfsanəsi kimi əbədi yaşayacaqdır.

Xalq rəssamı Tahir Salahov Azərbaycan təsviri sənətinin dünyada yaşayan əfsanəsidir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***



2021-ci il “Nizami Gəncəvi ili”dir

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*



**Klassik irsimiz**



## Vermərəm can sənə mən, can alan olsan da, gülüm,

Vermərəm can sənə mən, can alan olsan da, gülüm,
Çün alıb canı... yaşarsan təzə bir canda, gülüm.

Gərçi mən acizəm, amma sən əzazil olma,
Elə rəftar et... özünlə məni bir san da, gülüm!

Mən ki Cəmşid deyiləm, busənə bir qəsr verim,
Bir mənəm, bir də canım... almasan, alsan da, gülüm.

Sən keçən yollara mən göz gülabı səpmədəyəm,
Sən gedib, çör-çöpə öz sayəni salsan da, gülüm.

Səni göz nurum, həyat məqsədim, ömrüm bilirəm,
Üzü ay, gün şəfəqi, gül dodağı qənd, a gülüm!

Məni bir şəm ilə öldürmə, de, pərvanəmiyəm?
At qılıncı ki, mən atdım yerə qalxan da, gülüm!

Qul Nizami sənə dünya kimi açdı qucağın,
Bir öpüş... “Yox” deyibən etmə aman, and, a gülüm!

## Ey gülü-xəndanımız, sərvi-xuramanımız,

Ey gülü-xəndanımız, sərvi-xuramanımız,
Mən səninəm, sən kimin? Ey təzə reyhanımız.

Can sənə təslim olub, ruh dolanır başına,
Hər nə umursansa um, ey ruh ilə canımız!

Kəssə də dəstim qılınc, zülfün ucun vermərəm,
Ta ki quca boynumu yar əli - mərcanımız.

Təşnə mənəm, çeşmə sən, söndür ürək yanğımı,
Bal dodağındır sənin çeşmeyi-heyvanımız.

Can de Nizamiyə gəl, ta ki ucaltsın bizi
Ən ulu şah Axsitan - sahibi divanımız.

## Sığar qəlbə, qəmin dünyaya sığmaz,

Sığar qəlbə, qəmin dünyaya sığmaz,
Məhəbbət - dağ seli... məcraya sığmaz.

Gözüm qan-yaş... soruş hardan sızır qan?
Yığışsa çay olar, dəryaya sığmaz.

Gülüm, gülmə... dar ağzına bir öpgüm,
Şirin busəm sığar bəlkə, ya sığmaz.

Vüsal ümidi bir teldir - çox incə,
Vüsal eşqi sözə, misraya sığmaz.

Dodaq mücrün mənə bir ləl versə,
Günəş şehdə güli-rənaya sığmaz.

Nədir əhdin? Canım almaq? Bu gün al!
Sabah gecdir. Sabah sevdaya sığmaz.

## Sən görən deyiləm mən, sənsə elə o ləlsən.

Sən görən deyiləm mən, sənsə elə o ləlsən.
Mənim gəncliyim ötdü, sən bir az da gözəlsən.

Əmrinlə yox, təskin et məni öz insafınla.
Mən istəyən qədər yox, bacardığım qədər sən.

Sınıxmışam, eləmi? Necə sınmasın ürək?
Canım elə o candır, cismim - necə görmüsən.

Sən - Xəlilisən, mən - od, axı neçin sönməyim?
Mən ölürəm, sən yaşa! Ətir saç, ey gülbədən.

Sənin ay cəmalını görüm deyə bircə gün,
Musa tək ömrüm boyu çobanlıq edərəm mən.

Bağçamızda nə varsa, xəzan aldı, apardı,
Sənin kimi bahardan mən təravət umarkən.

Nizami kəmər çəkib dayanmış xidmətində,
İki dünya günəşi alnında parlar, əhsən!

**Dahi şair Nizami Gəncəvi (1141-1209) Azərbaycan xalqının bəşər mədəniyyətinə verdiyi ən böyük şəxsiyyətlərdən biridir. Şair 880 ildir ki, qüdrətli söz sənəti ilə dünyanı fəth edir. Onun sehri bitib-tükənmir, əsərlərinə bəslənən sevgi sərhəd hüdudlarına sığmır, qitədən-qitəyə dolaşır. İqlim qurşaqları bir-birinə qarışır, dünya fikir-fikir, biçim-biçim bu ölməz, əbədi irsin işığında yazılıb-yozulur. Hər təzə baxışda, hər yeni biçimdə təkrarsız bir ovqat yaranır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi haqqında 5 yanvar 2021-ci il tarixli sərəncamında deyilir: “Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyat Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir”.

Nizami Gəncəvinin “Leyli və Məcnun” poemasını qazax dilinə Q.Amanjalov, Q.Jarokov, T.Alimkulov, D.Əbilov, K.Kepişev və başqaları çox böyük ustalıqla tərcümə etmişdilər. Əsərin qazax oxucuları arasında hüsn-rəğbətlə qarşılanmasında onun yüksək bədii məziyyətlərinin məharətli tərcüməsi də mühüm rol oynamışdır.

Qazaxıstan SSR EA-nın həqiqi üzvü, akademik M.Auezov (1897-1961) 1947-ci il sentyabrın 26-da “Azərbaycan müəllimi” qəzetində dərc olunmuş “Sovet xalqlarının iftixarı” adlı məqaləsində qazax xalqının ədəbi yaradıcılığına N.Gəncəvinin böyük təsir göstərdiyini, qazax klassiki Abayın şeirlərindən birində onu özünün müəllimi və ustadı saydığını bildirərək, “Sovet İttifaqı ailəsinə daxil olan xalqların mədəniyyət tarixi üfüqündə parlayan solmaz bir günəş” kimi Nizami Gəncəvini səciyyələndirmişdir.

# Sərhədlərə sığmayan sevgi...

*(Qazaxıstan materialları əsasında)*

Sovetlər dönəmində Azərbaycan KP MK-nın “Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq haqqında” (1979, 6 yanvar) qərarına uyğun olaraq dahi sənətkarın həyat və yaradıcılığını daha dərindən tədqiq etmək imkanı genişlənirdi. Nizami irsi ilə bağlı iki ildən bir Ümumittifaq elmi konfransın keçirilməsi Azərbaycanda yaxşı bir ənənə halını almışdır. Bu möhtəşəm tədbirlər dünyanın şair və yazıçılarını Nizami işığında birləşdirdiyi kimi, alim və filosofları da daha böyük tədqiqatlara sövq edirdi.

Qüdrətli Nizami irsi Qazaxıstan və Mərkəzi Asiyanın çoxsaylı xalqları içərisində həmişə sevilmiş və xüsusi hörmət hissi ilə anılmışdır. XIV əsrin ortalarında yaşamış Qızıl Orda şairi Qütb Xarəzmi tərəfindən ilk dəfə Nizaminin “Xosrov və Şirin” əsərinin təxminən 1341-1342-ci illərdə cığatay dilinə çevrilməsindən sonra onun əsərlərinə olan maraq xeyli artmışdı. Qütb Xarəzmi bu işi dövrünün hökmdar şahzadəsi Tini bəy və onun arvadı Məleykə xanımın xahişi ilə yerinə yetirmişdir.

Nizami Gəncəvi Qazaxıstanda daha çox sevilən, tanınan və nəşr edilən şairdir. Əgər sənət meydanında qürurla addımlayan Oljas Süleymenovun təbirincə desək, şairin ən çox sevdiyi qadını Afaq (Appaq) qıpçaq (qazax) qızı olduğundan “qazaxlar Nizamini özlərinin doğma və əziz, qohum sənətkarı kimi qəbul edirlər”.

Qazaxlar Nizamini akın adlandırmış və haqqında yazılmış əksər məqalələrdə onu “Ulu akın”, “Gəncəli akın” və b. adlarla öz oxucularına təqdim etmişlər. Şairin Qazaxıstanda anadan olmasının 800 (1947), 825 (1966), 840 (1981) və vəfatının 750 (1959) illiyi təntənə ilə qeyd edilmişdir. 1947-ci ildən etibarən Nizaminin əsərləri Qazaxıstanda ayrı-ayrı qəzet və jurnallarda, həmçinin nəşriyyatlarda kitab şəklində çap olunmaqdadır.

1947-ci ildə Nizaminin 800 illik yubileyi ilə əlaqədar olaraq onun əsərləri bütünlüklə qazax dilində çap olunmuşdu. Şairin “Leyli və Məcnun” əsəri poema kimi yox, “Leyli və Məcnun” dastanı adlandırılmaqla, iki dəfə - 1947-ci və 1962-ci illərdə çap edilmişdi. 1968-ci ildə Alma-Atada “Nizami” kitabı “Ulu akınlar kitabxanası” seriyası adı altında nəşr olunmuşdu. Kitabın tərcüməçisi K.Kepişev ona müqəddimə yazmış, içəridə “Leyli-Məcnun” dastanından parçalar və Nofəllə Məcnunun qrafik üsulla çəkilmiş şəkilləri verilmişdir.

Böyük qazax sənətkarı Abay Kunanbayevin (1845-1904) yaradıcılığına Nizaminin zəngin irsi çox güclü təsir göstərmişdir. Təsadüfi deyildir ki, “İskəndərnamə” poemasının təsiri altında o, özünün “İskəndər” dastanını yaratmışdı. Əlbəttə, bu əsərdə Abay öz sələfinin əsərinə bənzərliyə yer versə də, ancaq fərqli, orijinal xüsusiyyətləri ilə seçilməyi də unutmamışdı. Əsərdə müəllif qazax xalqının həyatından lövhələr yaratmış, hətta Nizamidən gələn bəzi detalları, səhnələri dəyişdirməyi də unutmamışdı. O, Nizamini bəhanə edərək, öz zəmanəsinin müasir problemlərini dilə gətirmişdir. “İsgəndərnamə”də olan məşhur Nüşabə - İsgəndər görüşündə bildiyimiz kimi süfrəyə qaş-daş gətirilir. Abay həmin qaş-daşı adi sümüklə əvəz etmişdir. Məsələnin mahiyyətində də dəyişiklik aparılmışdır. Nizaminin qənaətinə görə qaniçən, qəddar fatehlər dünyanı “yemək belə mümkün olmayan” qaş-daşlara görə işğal edirdilər. Abay isə göstərirdi ki, şahlar aləmi sür-sümüklə doldurmuşlar”.

Nizami irsinə xüsusi önəm verən Xalijan Bekxojin qazax sovet şairlərinin orta nəslinə mənsub olub, onlarca lirik, epik və dramatik əsərlərin müəllifidir.

Xalijan Bekxojinin

*Ey şeir mülkünün şahı, sultanı,*
*Sözünlə bəzədin bütün dünyanı.*
*Firdovsidən alıb söz bayrağını,*
*Ucaltdın sənətin təmtərağını.* -

misraları ilə başlayan “Afaqnamə” poeması Qazaxıstanda yeni poetik hadisə kimi dəyərləndirilmişdi. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyatından, sevgisindən, onun ömür-gün yoldaşı Afaqın taleyindən bəhs edən bu “əsərin çox hissəsi, Nizaminin öz əsərlərində olduğu kimi, məsnəvi formasında qələmə alınıb. Deməli, qazax müəllifi Nizami yaradıcılığından hər şeydən qabaq forma cəhətindən istifadə etmişdir”.

1974-cü ildə Alma-Atada “Jazuşi” (“Yazıçı”) nəşriyyatı tərəfindən kitab şəklində çap olunmuş “Afaqnamə” poeması dörd hekayətdən - “Qıpçaq qızı haqqında nəğmə”, “Gəncəli şair haqqında beytlər”, “Qızıl Arslanla görüş”, “Afaqın ölümü”ndən və hər hekayət də bir neçə bölmələrdən ibarətdir. Poema-dastanın belə struktur forması da bir qədər diqqətlə fikir verilsə, elə Nizaminin “Sirlər Xəzinəsi”nin üslubunda qurulmuşdur.

“Afaqnamə”nin “Gəncəli şair haqqında beytlər” adlı ikinci hekayətində Nizaminin yetişməsində əvəzsiz rolu olan Gəncə şəhərinin təsviri və tərənnümü xüsusi yer tutur. Şair X.Bekxojin yazır:

*Ərzi tutub adı-sanı Gəncənin,*
*Bağ-bağatdır dörd bir yanı Gəncənin.*
*Dan çökəndə cəh-cəh vurur bülbülü.*
*Ətir saçır göy reyhanı, al gülü,*
*Göy kəmərli gözəl Gəncə, elə bil,*
*Ya füsunkar Səmərqənddir, ya Babil.*
*Bu mahalda Rum elinin, İraqın*
*Aliminə rast gələrsən - bir yığın.*
*Filosoflar, kimyagərlər, xətiblər*
*Bu şəhərdə fəzilətə yetiblər.*

Poemadan aydın olur ki, şöhrəti ərzə sığmayan Gəncədən sonra Nizamini Nizami eləyən ikinci böyük, ülvi qüvvə Afaqdır. Daim öz ilahi, qənirsiz gözəlliyi, dərin ağlı və kamalı ilə şairi həmişə yazıb-yaratmağa ilhamlandıran, sövq edən Afaq! Bu baxımdan poemanın “Afaqnamə” adlandırılması da təsadüfi deyil. Bir Azərbaycan oğlunun sənətkarlıq qüdrətinin parlamasında qıpçaq gözəlinin qatdığı rəng - öz çalarlarıyla həmişə parlayacaq, heç vaxt solmayacaq rəng.

“Afaqnamə” poemasını qazax dilindən şair Ələkbər Ziyatay doğma ana dilimizə çox böyük ustalıqla çevirmiş və bu əsər 1981-ci ildə “Yazıçı” nəşriyyatı tərəfindən 15000 nüsxə tirajla kitab şəklində çap olunmuşdur.

Nizami poemasının vurğunu X.Bekxojin şairin anadan olmasının 840 illiyi ərəfəsində onun “Yeddi gözəl” poemasını ustalıqla qazax dilinə çevirmiş və 488 səhifəlik bu kitab 1980-ci ildə Qazaxıstanda Alma-Ata şəhərində yüksək tirajla çap edilmişdir. Kitaba qazaxıstanlı nasir, şair, dramaturq və tərcüməçi kimi yaxşı tanınan K.T.Şangitbayev “Ulu akının gözəl dastanı” adlı sanballı müqəddimə yazmışdır. Çox nəfis və gözəl tərtibatla buraxılmış bu kitab indi də Nizami muzeyinin Nizami salonunda nadir eksponatlardan biri kimi nümayiş etdirilir.

1981-ci ilin oktyabrında Bakıda “dünya bədii mədəniyyətinin, bədii təfəkkürünün nəhəng simaları sırasında ilk yerlərdən birini tutan” dahi Azərbaycan şairi Nizaminin anadan olmasının 840 illiyi böyük təntənə ilə qeyd edildiyi yubiley tədbirlərində iştirak edən çoxsaylı qonaqlar içərisində Qazaxıstan Yazıçılar İttifaqı idarə heyətinin katibi, Qazaxıstan SSR Dövlət Kinematoqrafiya Komitəsinin sədri şair Oljas Süleymenov da var idi. Şanlı yubileyə həsr olunan şənliklər oktyabrın 6-da V.İ.Lenin adına sarayda təntənəli yığıncaqla açıldı. Yığıncaqda şıxış edən O.Süleymenov demişdir: “Bu gün biz çox gözəl və fərəhli hadisə münasibətilə toplaşmışıq. Əlamətdar haldır ki, ölkə və planet üçün məhz belə təşvişli bir vaxtda, bəşər sivilizasiyasının taleyinin yenidən həll olunduğu bir zamanda Azərbaycan Respublikası, ölkəmiz dünyanı sarsıdan bir sərkərdənin deyil, söz inciləri ilə xoş duyğular oyadan, dinc insan tərbiyə edən bir simanın adını və əlamətlərini bir daha yad etməyi mümkün və zəruri hesab edirlər.

...Mənim üçün bu yubiley həm də yenidən Azərbaycanda, Bakıda olmaq deməkdir. Mən sizin diyarınızı sevirəm. Mənim burada çox-çox dostlarım vardır. Mən çoxdan onları müşahidə edir, izləyirəm və son onillikdə siması həqiqətən dəyişmiş respublikanızın yeni taleyində öz duyğularımla sanki iştirak edirəm...”

Yığıncaqdan sonra yubiley iştirakçıları üçün verilən bayram konserti Nizami poeziyasının solmayan təravətini, onun misilsiz dəyərini göstərən təsirli hekayət oldu. Qazax şairi O.Süleymenov konsert iştirakçılarını böyük yaradıcılıq uğuru münasibətilə təbrik edərək, “İfaçıların məharətinə valeh olduğumu ifadə etməyə söz tapmıram. Mən sizə məftun oldum” demişdir.

Böyük Azərbaycan şairi və mütəfəkkiri N.Gəncəvinin anadan olmasının 840 illiyi Gəncədə (Kirovabadda) poeziya bayramı ilə, ədəbi-bədii yığıncaqlar və tamaşalarla qeyd edilmişdir.

Şəhərin şərq tərəfində ucalan əzəmətli Nizami məqbərəsinin ətrafında böyük poeziya bayramı keçirilmişdi. Şairin yaradıcılığını geniş təbliğ edən Nizami Poeziya Teatrı onun “Xosrov və Şirin” poemasının motivləri əsasında hazırladığı “Məhəbbət dastanı” adlı yeni tamaşanı qonaqlara göstərmişdir. Qonaqlar xor sənəti teatrının konsertində də olmuşlar. Yubiley şənlikləri Gənclər sarayında poeziya axşamı ilə başa çatmış, tədbirdə şair O.Süleymenov da iştirak etmişdir.

1981-ci ilin oktyabrında N.Gəncəvinin anadan olmasının 840 illiyi münasibəti ilə keçirilən yubiley tədbirlərində iştirak edən tanınmış qazax şairi, ədəbiyyatşünas, tənqidçi və pedaqoq Saqinqali Seitov (1917-2007) böyük poeziya bayramından razı qalmış, aldığı yüksək təəssüratı “Ədəbiyyat və incəsənət” qəzetinə göndərdiyi “Dühanın əbədi işığı” məktubunda çox səmimi şəkildə ifadə etmişdir.

Şair S.Seitov orada yazırdı: “Mən çox məmnun idim: çoxdankı arzum həqiqətə çevrilmişdi. Dahi Nizamini dünyaya bəxş etmiş qədim Gəncəni öz gözlərimlə görürdüm. Hələ şairin vətəninə gələndə inanırdım ki, buradan gələcək yaradıcılığım üçün yeni mövzular, yeni həvəs aparacağam...

Nizami Qərbin və Şərqin mədəniyyət xəzinəsinə çox böyük xidmət göstərmişdir. Onun dahiyanə əsərləri olmadan dünya ədəbiyyatını təsəvvürə gətirmək çətindir. Onun zəkasına və poeziyasına bütün dövrlərin və zamanların şairləri heyran qalmışlar. Şairin əsas əsərləri - onun “Xəmsə”si, qəsidə və qəzəlləri əsl ədəbi qəhrəmanlıq nümunəsidir. Misilsiz ustalıq, dərin məzmun və parlaq dil timsalıdır. Öz işıqlı, humanist ideyaları ilə Nizami bizim zəmanəmizlə daxilən səsləşir. O, insan əməyini və insan nəcibliyini tərənnüm edirdi”.

Qədim türk yurdu Qazaxıstanın kitabxana və arxivlərində Nizamiylə bağlı xeyli əsərlər mövcuddur. A.Kürkatovun “Azərbaycanın dahi akını Nizami”, E.İsmayılovun “Söz zərgəri”, T.Nurtazinin “Sənətkarlıq nümunəsi” və s. belə əsərlərdəndir.

XX əsrin 80-ci illərində Azərbaycanda Azərbaycan KP MK-nın 1979-cu il 6 yanvar tarixli “Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq haqqında” qərarına uyğun olaraq Ümumittifaq Nizami konfransı “XI-XII əsrlər Azərbaycan mədəniyyəti və Nizami Gəncəvi yaradıcılığı” (1980), ikinci konfrans “Nizami Gəncəvi və dünya ədəbiyyatı” (1982) və üçüncü “Nizaminin dünya ədəbiyyatında lirikanın inkişafındakı rolu və “Xosrov və Şirin” poemasının 800 illiyi” (1984, dekabr) mövzularında idi. Üçüncü konfransda 30-a yaxın məruzə dinlənilmişdir. Qazaxıstanın Alma-Ata şəhərindən gəlmiş alim X.Suyunşaliyevin məruzəsi Nizaminin Qazaxıstanda öyrənilməsi və tərcüməsinə həsr edilmişdi.

Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə “Leyli və Məcnun” poemasının 800 illiyi və nizamişünaslığın aktual probemləri” mövzusundakı dördüncü konfransı 1989-cu il dekabr ayının 20-21-də keçirilmişdir. Konfransda Alma-Atadan gəlmiş qazaxıstanlı alim, filologiya elmləri doktru Y.Kumısbayev “Qazax ədəbiyyatında Nizami ənənələri” mövzusunda məruzə etmişdir.

1988-ci il sentyabrın 27-də Gəncə şəhərində Nizami poeziya bayramı keçirilmişdir.

Bu gün Qazaxıstanda Nizaminin anasının və arvadının amazonlar nəslindən olması haqqında hələ də rəvayətlər və əfsanələr dolaşmaqdadır. “Guya onlar Qorqud kimi öz qopuzlarını gecə-gündüz çala-çala el-obanı gəzirmişlər. Nizami bir akın - aşıq kimi dastanlarını bu qopuzların təranələri, türküləri, şərqiləri altında yazıb-yaratmış və ozanlara vermişdir. Başqa sözlə, Nizami öz əsərlərinə ölməzlik ömrünü bu qopuzların ilahi səsindən əxz etmiş və dünyaya yaymışdır. Qazax folklorunda Nizamini ilahiləşdirmək meyilləri özünü açıq şəkildə büruzə verməkdədir. Onu Qorquda bərabər tuturlar”.

Bəli, Nizami sevgisi bu gün şirin bir nağıl, unudulmaz əfsanə, qədimdən də qədim rəvayət kimi dünyanı dolaşır. Bu sevgi sərhədlərə sığmayan əbədi bir sevgidir. Bu dünya durduqca bu sevgi də ölməyəcək, zamanın yaddaşına yazılıb, əbədiyyət heykəli kimi ucalacaq. Çünki Nizami qüdrəti İlahidən gələn qüdrətdir. Əbədiyyət ömürlü ilahi bir qüdrət.

***Əzizağa ƏLƏKBƏROV,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

**Dünya olduğu kimi**

# Avropanın ilk dövləti



**Qədim dünya tarixindən danışdıqda ilk ağla gələn dövlətlərdən biri Yunanıstan olur. Dünyanın ən qədim sivilizasiya məkanlarından biri olan Yunanıstan Afrikanın, Asiyanın və Avropanın kəsişmə nöqtəsində yerləşir.**

**Yunanıstan ən qədim insanların məskunlaşdığı ölkələrdən olub. Burada insanların məskunlaşma dövrü orta paleolitə aid edilir. Neolit dövründə Yunanıstan əhalisi əkinçilik və maldarlıqla məşğul olub oturaq həyat keçiriblər.**

Yunanıstanın adı tarixə antik dövrə aid bir çox yeniliklərin səbəbkarı olmaqla yanaşı, Avropada ilk dövlətin yaradıldığı yer kimi düşüb. Avropanın ən qədim dövləti eramızdan əvvəl III-II minilliklərdə Yunanıstanın cənubundakı Krit adasında yaranıb. Krit padşahlığının özünün ticarət və hərbi donanma üçün xüsusi limanları, kritlilərin öz yazısı olub. Krit mədəniyyətinə Şərq mədəniyyətinin böyük təsiri olub.

E.ə. II minilliyin ortalarında Kritə yaxın olan adalardan birində vulkan püskürməsinin baş verməsi nəticəsində Krit padşahlığı süqut edib.

E.ə. II minilliyin sonunda isə Yunanıstanda Peloponnes (Mora) yarımadasında Sparta şəhər dövləti yaranıb. Sparta Yunanıstanın Lakoniya yaxud Lakedemoniya adlanan vilayətinin əsas şəhəri idi. Buna görə də Sparta bəzən Lakoniya (yaxud Lakedemoniya), spartalılar isə lakoniyalılar adlanırdı. Spartalılar qısa və aydın danışırdılar. Müasir dövrdə istifadə etdiyimiz "lakonik" sözünün kökü qədim spartalıların sözlərə qənaət etməsi faktına dayanır.

Spartalılar ancaq hərbi işlə məşğul idilər. Qanun onların başqa işlə məşğul olmasına icazə vermirdi. Döyüş vaxtı onlar bir cərgəyə düzülüb nizələrini qabağa uzadır, irəli yeriyir, sanki divar hərəkət edirdi. Belə düzülüş falanqa adlanırdı. Spartalılar uşaq vaxtlarından sərt tərbiyə alır, bütün günü hərbi işlə məşğul olurdular. Sparta 30 ilə qədər davam edən Peloponnes müharibəsində Afinaya qalib gəlib bütün Yunanıstana hakim olmuşdu.

Qədim Yunanıstanın dəqiq olaraq nə zaman formalaşdığı tarix məlum deyil. Roma imperiyasından əvvəlki zamanlarda da Yunanıstan ərazisində inkişaf etmiş sivilizasiyanın olduğu məlumdur. Qədim Yunanıstan tarixinin ilk dövrü "Yunan qaranlıq erası" adlanır. Bu dövr təxminən 300 il davam edib. Eramızdan əvvəl 1100-cü ildə başlayan "Yunan qaranlıq erası" 800-cü ildə yekunlaşır.

E.ə təqribən 700-cü ildə əhali ümumi adla-ellinlər, ölkə isə Ellada adlandı. Sonra yunanlar Qara dəniz və Aralıq dənizi sahillərində məskən saldılar.

E.ə. 146-cı ildə Yunanıstan Romanın tərkibinə daxil edildi. Bizans imperiyası və ya yunan imperiyası Roma imperiyasının 395-ci ildə şərq və qərb hissələrinə parçalanması ilə meydana gəlib. Avropa, eləcə də bütün dünya mədəniyyətinin tarixində Bizans sivilizasiyası xüsusi yer tutur. Bizans imperiyası mövcud olduğu bütün minillik ərzində yunan-Roma dünyasının və ellinist Şərqin ənənələrini davam etdirərək parlaq mədəniyyət mərkəzinə çevrildi.

Günümüzdəki müasir Yunanıstan 1821-ci ildə Mora yarımadası və Afinadan ibarət kiçik bir bölgədə Yunan Krallığı adı altında quruldu.

## Dünyanın 7 möcüzəsindən 3-nü Yunanıstan yaradıb



**Bizanslı Filon "Babilin Asma Bağlarını, Olimpdə Zevsin heykəlini, Rodos nəhəngini, yüksək Misir piramidalarının qüdrətini və Mausoleusun məzarını gördüm. Amma buludlara doğru ucalan Efesdəki məbədi gördükdə digərlərinin hamısının kölgədə qaldığını hiss etdim" deyə yazıb.**

Onun haqqında danışdığı abidə dünyanın 7 möcüzəsindən biri sayılan Yunanıstandakı Artemision məbədidir. Bu məbəd e.ə. V əsrdə Kiçik Asiyadakı yunan şəhəri Efesdə memar Xersifronun layihəsi ilə inşa edilib.

Tanrı Artemis adına ilk türbə e.ə. 800-cü illərdə Efesdə bataqlıq sahilində qurulub. Bu qədim məbəddə Yupiterdən düşən bir meteoritin olduğu təxmin edilən müqəddəs bir daş vardı. Məbəd sonrakı yüzilliklərdə bir neçə dəfə dağıdılmış və yenidən inşa edilmişdir.

1869-cu ildə 6 metr dərinlikdə palçığın içində məbədin sütunları tapılır və bəzi qalıqlar Britaniya muzeyinə aparılır. Bu gün gələn turistlərə məbədin yerini göstərmək üçün bataqlıq vəziyyətində olan bölgəyə sadəcə bir sütün basdırılıb. Məşhur Artemis heykəlinin qalıqları dövrümüzə qədər gəlib çatıb.

"Dünyanın yeddi möcüzəsi"ndən biri sayılan Olimpdəki Zevsin heykəlini görməyəni Yunanıstanda bədbəxt adam hesab edirdilər. Antik müəlliflərin məlumatına görə, Zevs qızıl və fil sümüyü ilə bəzədilmiş taxtda əyləşmişdi. Onun gövdəsinin yuxarı hissəsi çılpaq, aşağı hissəsi isə zəngin paltara bürünmüşdü. Zevsin bədəni və başı ağacdan düzəldilmiş və üzəri fil sümüyü ilə örtülmüşdü.

Zevsin heykəlinin qalıqları Afinanın 150 km qərbində yerləşən qədim Olimpiya şəhərində, ilk olimpiadaların keçirildiyi yerdədir. Olimpiadalar əsnasında döyüşlər dayanar, dünyanın dörd bir tərəfindən gələn atletlər üçün bu heykəlin qarşısında mərasimlər təşkil olunarmış.

Heykəl e.ə. 450-ci ildə, onun yerləşdiyi məbəd isə daha əvvəl - e.ə. 770-ci illərdə olimpiadalar başlandıqdan sonra tikilib. İllər keçdikcə insanlar yalnız ibadət etmək üçün deyil, heykəli görmək üçün də buranı ziyarət etmişlər. Olimpiada oyunları 391-ci ildə bütpərəstlik olaraq günahlandırılıb ləğv edildi və Zevs məbədi də bağlanıldı. Heykəl o zamankı adıyla Konstantinopol deyilən İstanbula daşınıb və orada 462-ci ildə baş verən böyük yanğında yox olub. 1829-cu ildə Olimp dağında fransızlar tərəfindən heykələ aid bəzi parçalar tapılıb. Onlar hazırda Parisdə Luvr Muzeyində nümayiş olunur.

"Dünyanın yeddi möcüzəsi"ndən daha biri Yunanıstandakı Rodos nəhəngidir. E.ə. III əsrdə sərkərdə Demetri Rodos adasına hücum etmiş, lakin rodosluları məğlub edə bilməmişdi. Adanın uğurlu müdafiəsi şərəfinə rodoslular adada dünyanın ən böyük heykəlini qoymağı qərara almışdılar.

Dənizlə şəhər darvazaları arasındakı bazar meydanında qoyulmuş 36 metrlik tunc heykəldə gənc oğlan təsvir olunmuşdu. Onun möhkəm ayaqları azacıq aralı, sağ əli gözlərinin üstündə idi. Başında günəş şüalarının rəmzi olan tac vardı. Bu, Günəş tanrısı Heliosun təsviri idi. Camaat onu öz himayəçisi hesab edirdi.

## Demokratiyanın yarandığı yer Amerika, yoxsa Yunanıstan olub?

**Yunan sözü olub "demos-xalq", "kratos - idarə etmək" mənasını verən demokratiya anlayışının yaranması haqqında fikirlər muxtəlifdir.**

Amerikalılar demokratiya anlayışının 200 il bundan qabaq Amerikada yarandığını iddia edirlər. Lakin tarixə baxdıqda görmək olar ki, bu hec də belə deyil. Təqribən 2500 il bundan əvvəl qədim Yunanıstanda, daha dəqiq desək, Afinada seçkilər və bəzi qanunlar xalqın (25 yaşdan yuxarı kişilərin) bir araya gəlib səs verməsi ilə aparılır və qəbul edilirdi. Buna demokratiyanın ilkin forması adını da vermək olar. Sadalananlara əsasən demokratiya anlayışının məhz qədim Yunanıstanda ortaya çıxdığı bildirilir.

## "Dünyanın mərkəzi" Yunanıstandadır

**Yunanıstandakı Delf məbədi bir zamanlar dünyanın mərkəzi hesab edilib. Parnas dağının ətəyində iki qayanın arasında yerləşən qədim Delf abidəsi ilə bağlı miflər var. Məbədin eramızdan əvvəl 800-cü ildə qurulduğu təxmin edilir.**

Eramızdan əvvəl VIII və VII əsrin ortalarında Apollonun şöhrəti sayəsində məbədin əhəmiyyəti artdı. Delfi məbədinin dağıdılması eramızdan əvvəl 373-cü ildə baş vermiş böyük bir zəlzələ ilə əlaqələndirilir, lakin bəzi mənbələr bunun sürüşmə səbəbindən olduğunu yazır.

Mifologiyaya əsasən, Zevs dünyanın "göbəyi"ndə görüşmək üçün Yer kürəsinin əks tərəflərindən iki qartal buraxır. Onların görüşdüyü yer "Dünyanın göbəyi" adlandırılıb. Bura bütün qədim yunanlar üçün ən müqəddəs yer olub.

## Marafon yarışı və Olimpiya oyunları ilk dəfə Yunanıstanda baş tutub



**Beynəlxalq idman aləminin ən populyar yarışlarından olan Olimpiya oyunları ilk dəfə Yunanıstanda, İdalı Heraklın (Zevsin oğlu Herakl ilə qarışdırılmamalıdır) şərəfinə təşkil edilib.**

Belə ki, rəvayətə əsasən anası Reya yeni doğulmuş Zevsi kahinlərə verir. Həmin kahinlərdən beşi Krit adasında yerləşən İda şəhərindən Olimpiyaya gəlir. Həmin vaxt Olimpiyada artıq Kronosun şərəfinə ucaldılmış məbəd var idi. Hamını qaçış yarışlarında məğlub edən Herakl cır zeytun ağacının budağı ilə mükafatlandırılır. Herakl həm də yarışların Olimpiyaya gəlmiş idalı qardaşların sayına görə beş ildən bir (bütün illər sayılır) keçirilməsinin əsasını qoyur. Lakin sonra oyunların keçirilməsinə son qoyulur. Oyunlar bir də e.ə. 776-ci ildə bərpa edilir.

Qədim Yunanıstanda Olimpiya oyunlarının yaranmasından söz düşəndə oyunların əsası bir növ dinə sitayiş, ibadət nəzəriyyəsinə əsaslandırılırdı. Burada stadion, teatr və məbəd müqəddəs yer sayılıb.

Marafon qaçışı da ilk dəfə Yunanıstanda yaranaraq dünyaya yayılıb. E.ə. 490-cu ildə İran ordusu Naksos adasını, Evbeya adalarında Karistos və Eretriya şəhərlərini tutaraq Afinadan 42 km aralı Marafon düzənliyinə gəlib çatır. Bu döyüşdə İran ordusu böyük itkilər verir. Yunan döyüşçülərindən biri Fiddipid bu qələbə xəbərini Marafon düzənliyindən Afinaya qədər 42 km qaçaraq çatdırıb. Lakin onun ürəyi partlayaraq ölüb. Marafon qaçışı da ilk dəfə Yunanıstanda həmin döyüşçünün şərəfinə yaranıb.

## Elmdə, mədəniyyətdə ilk nümunələr



**Qədim yaxud antik yunan mədəniyyəti Avropa mədəniyyətinin beşiyi kimi tanınır. Yunan mədəniyyəti tarixən bütün dünya ölkələrinin mədəniyyətlərinə təsir edib.**

Avropanın ən qədim şəhərlərindən biri olan Afina eyni zamanda demokratiya, Qərb fəlsəfəsi, siyasət elmi, Qərb ədəbiyyatı, tarixşünaslıq, əsas riyazi prinsiplər və Qərb faciəsi və komediya nəzəriyyələrinin vətənidir.

E.ə. VI əsrin sonu-V əsrdə Afinada açıq havada tamaşa göstərmək üçün ilk teatrlar tikilib. E.ə. V əsrin sonları-IV əsrdə artıq bütün yunan şəhərlərində açıq havada tamaşa göstərilən teatrlar tikilmişdi. Romalılar Pun müharibələri dövründə yunan teatr mədəniyyətini mənimsəyiblər. Bütün Roma imperiyasında teatrlar qurulub. Sonralar isə teatr öz əhəmiyyətini pantomimanın inkişafı ilə əlaqədər olaraq itirib.

Yunanıstanda əfsanələr əsasında "keçi mahnısı" mənasını verən tragediyalar adlanan pyeslər yarandı. Afinada tragediyanın banisi Esxil olmuş, o, "Zəncirlənmiş Prometey" tragediyasını yazmışdı. E.ə. V əsrdə yaşamış Sofokl "Antiqona" faciəsinin müəllifidir. Yunanıstanda komediyalar şən, məzəli və gülməli səhnəciklərdən ibarət olurdu. "Quşlar" komediyasını yazmış Aristofan (e.ə. 445-385) "komediyanın atası" sayılıb.

E.ə. V əsrdə Afina yunan elminin mərkəzi idi. Bütün dünyanın ən xırda zərrəcik olan atomlardan ibarət olmasını da yunan alimi Demokrit açıqlayıb. O, insanlarda ruhun ölməzliyini inkar edir, dinin yaranmasının səbəbini insanların təbiət hadisələri qarşısında aciz qalmaları və qorxusu ilə izah edirdi. Demokritin davamçısı tibb elminin inkişafında böyük xidməti olan Hippokrat idi. Həkimin mənəvi davranış normaları olan "Hippokrat andı" onun adı ilə bağlıdır.

Makedoniyalı İsgəndərin müəllimi olan Aristotel bütün bilikləri ayrı-ayrı sahələrə böldü, elmlərə ad verdi: botanika yunanca "bitki", fizika - "təbiət", politika - "dövlət" sözlərindən götürülüb. Buna görə də ona "birinci müəllim" deyirlər. Aristotel hesab edirdi ki, Yer kürə şəklindədir, dünyanın mərkəzində yerləşir, Günəş və ulduzlar isə onun ətrafında fırlanır.

Yunanıstanda tarix elminin əsası e.ə. V əsrdə qoyulub. Yunanıstan, Ön Asiya və Misirin, o cümlədən Azərbaycanın tarixini öyrənmək üçün qiymətli mənbə olan "Tarix" əsərini Siseronun "tarixin atası" adlandırdığı yunan tarixçisi Herodot yazıb.

Dünyanın mənşəyini mifoloji deyil, təbii bir şəkildə izah edən ilk şəxs də yunan filosofu Thales olub. Yunanlar fəlsəfədə kainatın təbiəti haqqında hər bir ağlabatan sualı cavablandırmağa, həqiqət problemini və həyatın məqsəd və mənasını tapmağa çalışmışdılar. Fəlsəfədə bu günə qədər ən çox müzakirə edilən mövzu yunanların qərarlarının həqiqiliyi barədə olmuşdur. Bu fakt onların nailiyyətlərinin böyüklüyünü təsdiq edir.

Hələ yunan qaranlıq erasında bəzi həndəsi biliklər yaranmış, üçbucaq, kvadrat və çevrə kimi həndəsi fiqurlar meydana gəlmişdir. Qədim yunanlar riyazi nəzəriyyə üzrə də birinci idilər. Pifaqorun, Evklidin və Arximedin nəzəriyyələri müasir cəbr dərsliklərinin əsasını təşkil edir.

Qədim Yunanıstandan danışdıqda Homeri unutmaq olmaz. Eramızdan əvvəl VIII əsrdə yaşamış kor şair Homer Yunanıstanın tarixini əks etdirən "İlliada" və "Odisseya" dastanlarını yaratmışdı. İki əsr müddətində şifahi şəkildə söylənilən bu dastanlar eramızdan əvvəl VI əsrdə yazıya alınmışdı.

Yunanlar e.ə. II minillikdə unutduqları öz yazılarına bir daha qayıtmadılar. Onlar e.ə. IX əsrdə finikiyalıların əlifbasına sait səsi bildirən 2 işarə əlavə edib 24 hərfdən ibarət yunan əlifbasını tərtib etdilər. Yunan əlifbası bir çox əlifbalar üçün əsas oldu.

Qədim yunan dininin hər hansı bir vahid təlimi, müqəddəs kitabı ya da mərkəzi olmayıb. Qədim yunan mifologiyasının bir çox tanrıları olub.

*İlhamə İSABALAYEVA, "Azərbaycan"*

**Sağlıq olsun**

# Ellinlərin şəfası

**Eramızdan əvvəl 700-cü ildən başlayan və təxminən eramızın 600-cü ilinə qədər davam edən Qədim Yunan sivilizasiyası ərəfəsində yunan həkimləri də tibdə rasional düşüncəyə yönələrək sağalmaq üçün ilahi müdaxiləyə güvənməkdən çox praktik, təbii çarələrə yönəldilər. Beləliklə, qədim yunan həkimlərinin tibbi baxışları "sağlıqlı bədəndə sağlıqlı zehin" qavramına uyğun formalaşdı.**

### Tibb və riyaziyyat

Antik Yunanıstanda ilk zamanlar tibb hələ müstəqil bir sahə deyildi, lakin zaman keçdikcə digər sahələrdəki mütəxəssislərin biliklərini sağlamlığa yönəltmək üçün müəyyən tibbi intizam yaratmağa nail oldular.

Eramızdan əvvəl VI əsrdə yaşamış Pifaqor təbiət elmlərinə say nəzəriyyəsini gətirən riyaziyyatçı idi. Onun davamçıları isə rəqəmlərin, xüsusən 4 və 7 rəqəmlərinin sağlamlıq baxımından da müəyyən mənalara malik olduğuna inanırdılar. Məsələn, 7x40 bərabərdir 280, tam müddətli hamiləlik günlərinin sayı da 280-dir. Həmçinin səkkizinci aydan çox yeddinci ayda doğulan bir körpənin daha sağlam olacağına inanırdılar. Hansısa xəstəliyə yoluxmadan yayınmaq üçün 40 günlük karantin müddəti isə 40 sayının müqəddəs olduğu fikrindən irəli gəlirdi.

Yunanlara aid qədim qeydlər eramızdan əvvəl 700-cü ildə Knidosda erkən bir tibb məktəbinin olduğunu göstərir. Xəstələri müşahidə etmək praktikasına da bu məktəbdə başlanılmışdı. Eramızdan əvvəl 500-cü illərdə yaşamış filosof Alkmaion da bu məktəbdə çalışmış, tibb haqqında geniş məlumatlar yazmış və xəstəliklərin mümkün daxili səbəbləri ilə maraqlanan ilk şəxs kimi tarixə düşmüşdür. Filosof o dövrdə xəstəliklərin ətraf mühitin problemlərindən, qidalanma və yaşam tərzindən qaynaqlana biləcəyini diqqətə çəkmişdir.

### Müharibə və Olimpiya oyunları

Qədim yunanları şəfa axtarmağa və sağlamlığı inkişaf etdirməyə təşviq edən iki əhəmiyyətli amil isə hərbi fəaliyyət və idmanla bağlı idi. Müharibələrdə həkimlər yaraları sağaltmaq, bədəndən yad cisimləri çıxarmaq və əsgərlərin ümumi sağlamlığı ilə maraqlanmağa çalışırdılar. Qədim Yunanıstanda başlayan Olimpiya oyunları da fiziki gücü artırmaq və yaralanmaları önləmək üçün insanların sağlıqlı qalma ehtiyacını artırırdı. Məsələn, bədən istiliyini artırmaq üçün zeytun yağından istifadə etmək, yaralanmaları önləmək üçün yarışmadan öncə isinmə praktikası var idi.



### Təbiətə qarşı batil inanclar

Yunan həkimlər bütün xəstəliklərin və narahatlıqların təbii bir səbəbi olub-olmadığı ilə maraqlanmağa başlamaqla bərabər, xəstəliyə təbii müalicələrlə çarə tapmağa da çalışırdılar. O zamana qədər isə pis ruhları qovmağa yönəldilmiş sehrlər və bu kimi batil inanc üsulları tibbin ən populyar forması idi.

Zaman irəlilədikcə isə qədim yunan tibbi duaların xəstəliklərə və vəbalara qarşı təsirsiz olduğu və epilepsiyanın qəzəbli tanrılar və ya pis ruhlarla heç bir əlaqəsi olmayan elmi qənaətə gəldilər.

Buna görə də yunan tibb mütəxəssisləri və alimləri get-gedə xəstəliklərin səbəbi üçün tamamilə təbii nəzəriyyələr axtarmağa başladılar.

### Dörd bədən mayesi

Qədim yunan filosofu Empedokl bütün təbii maddələrin dörd elementdən yarandığı fikrini ortaya qoymuşdu: torpaq, su, hava və od. Bu dörd element fikri qədim yunan həkimlərini dörd bədən mayesi nəzəriyyəsini yaratmağa sövq etdi. Bu dörd bədən mayesi isə qan, bəlğəm, sarı safra və qara safra idi. Onların fikrincə, bədəndə bu mayeləri balanslı saxlamaq sağlamlığın əsas şərti idi.

Qədim yunanlılar daha sonra hər bir mayeni bir mövsümə, bir orqana, bir hissə və bir elementə uyğunlaşdırıb cədvəl tərtib etdilər:

1. *Qara safra-dalaq-melanxolik-soyuq-quru-torpaq*
2. *Sarı safra-ağciyərlər-soyuqqanlı-soyuq və yağışlı-su*
3. *Bəlğəm-baş-optimist-isti və yağışlı-hava*
4. *Qan-öd kisəsi-əsəbi-isti və quraq - od*

Nəzəriyyəyə əsasən bütün mayelər düzgün şəkildə balanslaşdırıldığında və qarışdığında şəxsin mükəmməl bir sağlığa sahib olacağı, bu mayelərdən birinin az, digərinin isə çox olduğu şəxsdə xəstəliyin ortaya çıxacağı düşünülürdü.

### Tibbi təcrübə və tədqiqat

İki məşhur yunan filosofu Aristotel və Platon insan bədəninin o biri dünyada heç bir faydası olmadığı nəticəsinə gəldikdən sonra bu düşüncə yayılaraq yunanlı həkimlərə də təsir etdi və onların insan bədəninin daxilini sistematik şəkildə anlamağa başlamasına səbəb oldu.

Misirdə, İskəndəriyyədə elm adamları ölü bədənləri kəsməyə və onları araşdırmağa başladılar. Bu cür araşdırmalar isə ürəyin deyil, beyinin bədən üzvlərinin hərəkətini idarə etdiyi, qanın damarlardan keçdiyi tibbi nəticələrə yol açdı. Həmçinin mütəmadi baş verən müharibələr həkimlərə ilk yardım göstərmək təcrübəsi qazandırdı. Onlar qırıq sümükləri düzəltmək, çıxıq əzaları yerinə salmaq və sürüşmüş diskləri yaxınlaşdırmaq bacarığına malik təcrübəli mütəxəssislər oldular.

Hərbi həkimlər ox uclarını və digər silah parçalarını bədəndən çıxarırdılar. Həmçinin qanqrenanın yayılmasını dayandırmaq üçün amputasiya edirdilər. Yaranı ip vasitəsi ilə bağlayır və ona sirkə, şərab, yağ, su, dəniz suyu, bal ilə isladılmış kətanla və ya toz halına gətirilmiş bitkilərlə sarğı qoyurdular.

### Qədim müalicə üsulları

Qədim yunan müalicə üsullarına əsasən, sinə xəstəlikləri zamanı bəlğəm çıxarmaq üçün arpa şorbası, eyni zamanda sirkə və baldan istifadə edilirdi.

Qədim tibbə aid kitablarda deyilirdi ki, sətəlcəm vaxtı vannalanmaq ağrını azaldır və bəlğəmi çıxarmağa kömək edir. Bunun üçün xəstə vannada tamamən hərəkətsiz qalmalıdır.

Həkimlər xəstənin normal temperaturunu tarazlaşdırmağa çalışarkən soyuqlamış xəstəni isti yerdə, qızdırmalı və tərləyən xəstələri isə quru və sərin yerlərdə saxlayır, qan tarazlığını təmin etmək üçün xəstələrdən qan alırdılar. Safra balansını tənzimləmək üçün laksatif verərək və ya qusduraraq xəstəni saflaşdırırdılar.

Yunan həkimlər eyni zamanda zehni və fiziki xəstəliklərin müalicəsi olaraq xəstələrə musiqi dinləməyi, teatr tamaşalarına baxmağı məsləhət görürdülər. Gut müalicəsi üçün fleyta və lira səsi dinləmək, psixoterapiya üçün tamaşalar izləmək müsbət nəticə verirdi.

**Elmi tibbin banisi**

## "Təbabətin atası"

**Qədim Yunanıstanın ən məşhur və əhəmiyyətli tibbi fiquru isə bugün "təbabətin atası" olaraq adlandırdığımız Hippokratdır.**



Eramızdan əvvəl 460-370-ci illərdə yaşamış Hippokrat Yunanıstanın Kos adasında anadan olub. O, Taşoz, Abdera, Larissa və Kyzikosda həkimlik edib. Anadolunun şimal ellərini gəzdikdən sonra İstanköy adasına dönərək həkimliyini orada davam etdirmişdir. O, tibb məktəbinin qurucusu olaraq bu sahəyə mühüm töhfələr verib və demək olar ki, qədim səhiyyədə inqilab yaradıb. Hippokrata qədər tibb fəlsəfənin və ritualların, cadu, sehr və pis ruhları yox etməyin bir parçası idi. Hippokrat və həmməslәkləri təxminən 60 qədim antik yunan tibbi əsərindən ibarət "Hippokrat Korpus"unu yazıblar. Hippokrat tibbə elmi cəhətdən yanaşıb və qarşılaşdığı hadisələri çox diqqətlə müşahidə edib. "Təbabətin atası"nın əksər müşahidələrinin nəticələrini, məsələn, səbəbsiz yorğunluğun xəstəlik əlaməti olması, sayıqlayan insanın yuxuya getməsinin sağalməğa işarə olması, bədənin hər hansı hissəsinin səbəbsiz yerə ağrımasının psixi fəaliyyətin nəticəsi olduğunu müasir elm də təsdiqləyir.

**İnancla sağalmaq**

## Şəfa tanrısı



**Qədim Yunanıstanda təbii müalicələrə rəğmən bir çox həkimlər tanrılara da müraciət edirdilər. Asklep (Eskulap) yunan şəfa tanrısı idi. Rəvayətə görə, Asklep tanrı Apollonla ölümlü Coronisin oğlu idi. Lakin Apollon Coronis hamilə ikən ona qəzəblənmiş və buna görə bacısı Artemisin köməyi ilə Coronis və bütün ailəsini məhv etməyə qərar vermişdi.**

Ancaq Apollon sevgilisinin cənazəsini düşünəndə bətnindəki oğluna yazığı gəlmiş və bu səbəbdən körpəni onun bətnindən çıxartdırmışdı. Bundan sonra Asklep musiqi, qədim sehr və tibbi biliklərə sahib olan kentavr Khiron tərəfindən böyüdülməsi üçün Pelion dağına aparılmışdır və o, burada adıçəkilən sənətlərin hamısına yiyələnərək insanlara şəfa vermək qabiliyyəti ilə məşhurlaşmışdı. Rəvayətə görə, Asklep əlindəki əsa ilə xəstələrə şəfa verirmiş. Bu əsanın üzərinə isə ilan dolanıbmış. Mifologiyaya görə, Krit çarı Minosom Asklepi çağırıb ki, onun ölmüş oğlunu diriltsin. O, çarın yanına getməyə hazırlaşarkən görür ki, əsasının üstündə ilan var. Bu ilanı öldürür. Dərhal başqa bir ilan ağzında şəfaverici otla ölmüş ilana yaxınlaşaraq onun yarasına şəfaverici otu sürtür, ölmüş ilan dirilir. Asklep də həmin şəfaverici otu götürüb Krit çarının oğlunu diriildir.

Qədimdə Epidaurusda Asklepion adında bir ibadətgah vardı və o zaman bəzi yunan həkimlər xəstələri müalicə edəndən sonra onları yatmaq üçün həmin ibadətgaha aparardılar. Asklepin qızları Higeya (Gigiyena) və Panaceanın, iki müqəddəs ilanla birlikdə gələrək müalicə etdikləri insanları sağaldacaqlarına inanırdılar.

Asklepin simvolu əsaya sarılmış ilan, qızı sağlamlıq ilahəsi Higeyanın simvolu isə qədəhə sarılmış bir ilandır. Apteklərdə gördüyümüz piyaləyə dolanan ilan simvolunun da buradan qaynaqlandığı ehtimal olunur.

**Tibdə əxlaq**

## "Hippokrat andı"

**Hippokrat həm də təbabətdə əxlaq məsələlərinə toxunaraq həkimin davranış qaydalarına dair fikirlərini açıqlamışdır. "Hippokrat andı"nda hər bir həkimin riayət edəcəyi əxlaqi məsələlər öz əksini tapmışdır. Hazırda da tibb universitetlərini bitirən məzunlar "Hippokrat andı" içirlər. Həmin andda həkimlərin davranış qaydalarına aid məsələlər bu cür öz əksini tapmışdır:**



*Apollona - loğman Asklep, Higeya və Panakeya və bütün tanrıların şahidliyində and içirəm ki, verdiyim sözə və götürdüyüm öhdəliklərə gücüm və dərrakəm çatdığı qədər əməl edəcəyəm: bu sənətdə müəllimimi valideynlərim kimi tanıyacağam, qazandığımı onunla bölüşəcək və ehtiyaclarında ona köməkçi olacağam; onun övladlarını özümə qardaş bilib, öyrənmək istədikləri təqdirdə onlara bu sənəti bir ödəniş və ya sənəd almadan öyrədəcəyəm; şifahi dərsləri və təbabət biliklərini özünün və müəllimimin övladlarına və ancaq təbabət qaydalarına sadiq və həkim andı içən şagirdlərimə öyrədəcəyəm. Bunlardan başqa bir kimsəyə öyrətməyəcəyəm. Gücüm çatdığı qədər müalicəmi heç bir vaxt pislik üçün deyil, kömək üçün istifadə edəcəyəm. Məndən istifadə üçün zəhər istəyənə onu verməyəcəyim, belə bir hərəkət tərzini belə tövsiyə etməyəcəyəm. Bunun kimi bir hamilə qadına uşaq salması üçün kömək etməyəcəyəm. Həyatımı, sənətimi tərtəmiz bir şəkildə istifadə edəcəyəm. Sidik kisəsi daşından əziyyət çəkənləri yarmayacaq və onları bu işlə məşğul olanlara həvalə edəcəyəm. Hansı evə daxil olaramsa, ancaq xəstənin xeyrini düşünəcəyəm, qəsdli olan bütün pisliklərdən qaçacağam, istər azad, istər kölə olsun, kişi və qadınların bədənini sui-istifadə etməkdən çəkinəcəyəm. İstər sənətimin icrası, istərsə də sənətim xaricində insanlarla münasibətdə baş verənləri, görüb eşitdiklərimi bir sirr olaraq saxlayacağam və kimsəyə açmayacağam. Andıma sadiq olaramsa, qoy həyatımda və sənətimdə nəsibim xoşbəxtlik və insanların rəğbəti, olmaramsa, bunun əksi olsun.*

*Hippokrat*

# Milli Olimpiya Komitəsində görüş





Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Bakıda səfərdə olan Kikboksinq Təşkilatları Dünya Assosiasiyasının (WAKO) prezidenti Roy Beyker ilə görüşüb.

MOK-un Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ç.Hüseynzadə Azərbaycanda kikboksinqə böyük maraq olduğunu vurğulayıb. O, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, dövlət başçısı İlham Əliyevin qeyri-Olimpiya idman növlərinin inkişafına da diqqət göstərilməsini vacib hesab etdiyini bildirib. "Azərbaycan Milli Olimpiya Komitəsi qeyri-Olimpiya idman növlərinin təbliği istiqamətində fəaliyyət göstərməkdə maraqlıdır", - deyən Ç.Hüseynzadə MOK-un prezidenti İlham Əliyevin yüksək nailiyyətlər qazanan idmançıları və idman mütəxəssislərini xüsusi mükafatlarla təltif etdiyini də xatırladıb. O bildirib ki, həmin idmançılar arasında xeyli sayda kikboksçu da var. Biz kikboksinqin Olimpiya Oyunlarının proqramına salınmasını istərdik. Çünki ölkəmizdə idmanın inkişafına töhfə verən atletlər arasında kikboksçular da var.

Karatenin Tokio Olimpiadasının proqramına salınmasından danışan vitse-prezident deyib: "İlk dəfədir ki, karate Olimpiya Oyunlarının proqramına salınıb. Bu, bizi sevindirir. Çünki Olimpiya Oyunlarına lisenziyanı təmin edən və dünya miqyasında tanınan karateçilərimiz Tokioya medal qazanmaq üçün yollanacaqlar".

Səmimi görüşə görə təşəkkürünü bildirən WAKO-nun prezidenti Azərbaycan idmançılarının istər kikboksinq, istərsə də digər döyüş idman növlərində qazandıqları uğurların digər ölkələrə nümunə olduğunu bildirib. O, təmsil etdiyi idman növünün idman fəlsəfəsinə yenilik qatdığını da bildirib: "Kikboksinq yıxılmağı və ayağa qalxmağı öyrədir. İdmanın bu növündə qələbə qədər məğlubiyyətdən sonra da davam etməyin mümkünlüyü təlqin olunur".

Kikboksinqin gənc nəslin marağına səbəb olduğunu bildirən Roy Bayker vurğulayıb ki, bu, idman növü qadınlar arasında da populyardır. Əgər karatedə qadınların iştirakı 27, boksda cəmi 12 faizdirsə, kikboksinqdə bu göstərici 34 faizə çatır. Bu da bizi sevindirir. İldə kikboksinq üzrə 1300 tədbir keçirilir. Dünyada kikboksinqlə məşğul olan insanların sayı 5,2 milyona çatır.

Sonunda Çingiz Hüseynzadə WAKO prezidentinə MOK-un xatirə hədiyyələrini təqdim edib.

# "Azercell" yerli kommunikasiya sektorunda Big Data texnologiyalarını tətbiq edən ilk şirkətdir

Azərbaycanın kommunikasiya sektorunda ilk dəfə Big Data texnologiyasını tətbiq edən "Azercell" Telekom bu sahədə ciddi irəliləyiş əldə edib. Sözügedən texnologiyanın qabaqcıl həllərindən istifadə mobil operatorun rəqəmsal transformasiyasını mümkün edib. Hazırda "Azercell"in hədəfi abunəçilərin tələbatlarını real vaxt rejimində təyin edərək müvafiq təklifi onlara dərhal göndərən modelləri ərsəyə gətirmək, bununla da müştərilərinin həyatını asanlaşdırmaqdır. Məhz buna görə də bu gün "Azercell"in istənilən məhsulunun təməlində Big Data analitikası dayanır.

Mobil operatorlar üçün sərhədsiz imkanlar yaradan bu texnologiya mövcud məlumat platforması, məlumatların saxlanması və işlənməsi ilə bağlı çətinlikləri aradan qaldırıb. Big Data texnologiyası böyük həcmdə məlumatlara sahib olan "Azercell" şirkətinə onları real vaxt rejimində dərin analizini aparmağa imkan verir. Bu, həm də dəyişən bazar şəraitinə çevik reaksiya verib, dərhal tövsiyələr irəli sürməyə fürsət yaradır. Qeyd olunmuş imkanlardan yararlanmaq üçün "Azercell" Big Data texnologiyasına əsaslanan layihəni icra edir. Bu proses özündə texnoloji, analitik və data aktivlərinin idarə olunması üzrə transformasiyanı nəzərdə tutur.

Texnoloji transformasiya - yerli kommunikasiya sektorunda ilk dəfə olaraq Big Data texnologiyasının tətbiqini; Analitik transformasiya - maşın öyrənməsi, vizuallaşdırma, real vaxt hesabatları və proqnozlaşdırıcı analiz vasitəsilə təhlil proseslərinin effektivliyinin artırılmasını; Data aktivlərinin idarəedilməsi - korporativ səviyyədə məlumatların idarə olunmasını ehtiva edir.

"Azercell" şirkəti artan məlumat həcmi və analitik ehtiyacları təmin etmək üçün Apache Hadoop, Spark və Kafka kimi "opensource" (açıq mənbə) texnologiyalarına əsaslanan Big Data ekosistemini tətbiq edib. Apache Nifi məlumat toplama platformasının tətbiqi ilə məlumatların işlənməsi imkanlarını artırıb. Eyni zamanda, Big Data platforması korporativ səviyyədə olan verilənlər anbarı platformasına inteqrasiya olunaraq şirkət səviyyəsində birləşdirilib.

"Azercell" SAS və Tableau şirkətlərinin maşın öyrənmə və vizual təhlil platformalarını tətbiq etməklə təhlil imkanlarını daha da təkmilləşdirib. Bu platformaların tətbiqi maşın öyrənməsini, proqnozlaşdırıcı təhlillərin və statistik məlumat modellərinin daha dəqiq və sürətli hazırlanmasını təmin edib. Nəticədə yeni abunə axını (churn) modeli, ikili sim abunə modeli, seqmentasiya modeli və satışın optimallaşdırılması modelləri hazırlanıb. Bu da öz növbəsində müştərilərin dəqiq seqmentlərə bölünməsinə, müştəri axınının qarşısının alınmasına, bazar reallıqlarına daha da uyğun olan məhsul və xidmətlərin hazırlanmasına imkan verib.

Hazırlanmış vahid korporativ idarəetmə panelləri real vaxt rejimində bütün şöbələrin maliyyə və biznes göstəricilərini izləməyə imkan verir. Beləliklə, artıq şirkətin fəaliyyətinin monitorinqi xüsusi panellər vasitəsilə onlayn rejimdə həyata keçirilir, real zaman kəsiyində trafik, servislər və digər detallar haqqında məlumatlar əsasında müvafiq qərarlar qəbul olunur. Bunlar dəyişən bazar şəraitinə çevik reaksiya verib, dərhal tövsiyələr irəli sürməyə fürsət yaradır.

İstifadə edilən hazır proqram təminatları ilə yanaşı, "Azercell" həm də "opensource" proqram təminatları və maşın öyrənmə kitabxanaları ilə, R və Python proqramlaşdırma dillərindən istifadə etməklə yeni modellər hazırlayır. Bu strategiya isə məlumatların əlavə təhlil imkanlarını zənginləşdirir.

"Azercell" məlumat idarə olunması layihəsi çərçivəsində bu sahədə "Informatica" kimi aparıcı şirkətin proqram təminatından istifadə edir. Bu layihənin icrası məlumatların idarə edilməsinə, əldə olunmasına, təsnifatlaşdırılmasına imkan verəcək.

Big Data texnologiyaları həm şirkətlərə, həm də müştərilərə yararlıdır, belə ki, şirkət öz hədəf auditoriyasını nə qədər yaxşı tanıyırsa, onlar üçün bir o qədər sərfəli təklif hazırlaya və ya daha çox fərdiləşdirilmiş məhsullar təqdim edə bilər. Digər tərəfdən, Big Data texnologiyası daxili qərar qəbuletmə prosesini optimallaşdırmağa və məlumatların işlənmə xərclərini ümumilikdə azaltmağa kömək edir. Bu isə son nəticədə məhsul qiymətlərinin effektivliyi ilə nəticələnir. Big Data daha öncə əlçatan olmayan imkanlardan və daha dəqiq proqnozlaşdırmadan istifadə edərək rəqabət qabiliyyətini artırmağa şərait yaradır. Həmçinin cəmiyyətin rifahının daha da artırılmasına xidmət edəcək həlləri yaratmaq imkanı verir.

# Qaydaların yumşaldılması gözlənilir

Əvvəli 1-ci səh.

Mən həkim olaraq düşüncələrimi bölüşürəm" - Yaqut Qarayeva belə deyib.

O vurğulayıb ki, vətəndaşlarımızı narahat edən bir çox suallar var. İstər şadlıq mərasimləri, istərsə də kütləvi insanların bir yerə toplaşdığı digər mərasimlərin keçirilməsinədək hamısı müzakirə olunur: "Cəmiyyəti, vətəndaşları narahat edən işlər bizi də narahat edir. Çünki biz də onlardan biriyik. Pandemiya şəraitində yeni qərarların qəbulu üçün yoluxma sayının azalması ilə yanaşı, vaksin vurduranların sayı da o qədər önəmlidir".

TƏBİB-in departament müdiri Yaqut Qarayevanın sözlərinə görə, vaksinasiya prosesi sürətləndikcə, ictimai nəqliyyatla bağlı da yeni qərarlar ola bilər: "Hazırda vətəndaşlarımızın gözlədiyi bir neçə istiqamətdə yumşalmalara gedilməsi sahəsində çox ciddi iş aparılır. Son zamanlar yoluxma sayında mərhələli şəkildə yaxşılaşma buna imkan verir. Hazırda pandemiyaya yönəlmiş bəzi xəstəxanalarımız xəstə sayı az olduğuna görə bağlanır. Bu, çox sevindiricidir. Ona görə də hər kəsi peyvənd olunmağa çağırıram. Bildiyiniz kimi, ölkəmizdə 3 fərqli şirkət tərəfindən istehsal olunmuş iki növ vaksin seçimi var. Vətəndaşlarımız tam könüllü şəkildə, istədikləri vaksini seçərək, peyvənd oluna bilərlər".

Departament rəhbəri daha bir sevindirici xəbər verib. Açıqlayıb ki, Azərbaycanda toy və digər mərasimlərin pandemiya şəraitində təşkil edilməsi ilə bağlı da qaydalar hazırlanır. Yaqut Qarayeva deyib: "Bəlli qaydalar hazırlanır. Artıq bir ildir deyirik ki, normal həyata qayıdaq. Lakin bilməliyik ki, normal həyat anlayışımız da bir qədər dəyişəcək".

Bu da o deməkdir ki, açıq havada maska qadağasının aradan qaldırılması, ictimai nəqliyyatla, toy şənliklərinin keçirilməsi ilə bağlı qərarların verilməsi pandemiyanın həyatımızdan tamamilə çəkilib getdiyi anlamına gəlmir. Bu barədə düşünmək və arxayınlaşmaq tezdir. Ehtiyatı unutmaq olmaz. Odur ki, pandemiya dövründə adət etdiyimiz zəruri qaydalar hələ həyatımızda qalacaq. Müəyyən edilmiş məsafənin saxlanması, maskadan qapalı yerlərdə istifadə və gigiyenik tələblərə əməl olunması həyatımızda vacib olaraq hələ bir müddət də qalacaq.

Koronavirusla bağlı verilən rəsmi qərarlara ciddi şəkildə əməl etmək, onlardan kənara çıxmamaq vacibdir. Çünki biganəliyin, laqeydliyin ağır nəticələrə səbəb ola biləcəyi heç kimə sirr deyil. Digər tərəfdən, yeni növ koronavirusun dayanmadan yoluxma zəncirini genişləndirməsinin qarşısının alınmasında COVID-19 əleyhinə peyvəndləmənin ən effektiv vasitə olduğu mütəxəssislərin israrlı tövsiyələri sırasındadır. Məsləhət görülür ki, koronavirus pandemiyasına qarşı ən təsirli qorunma yolu olan vaksinasiya davam etməlidir, ən qısa zamanda hər kəs mütləq peyvənd olunmalıdır.

Bəs virusdan sağalan insanlar vaksin vurdura bilərmi? TƏBİB-in Departament müdiri Yaqut Qarayeva vurğulayıb ki, COVID-19-a yoluxub sağalan insanlar sonradan vaksin vurdururlarsa, onlarda yaranan immunitet daha uzunmüddətli olur. Yaqut Qarayeva bildirib ki, ümumiyyətlə, vaksin məsələsi indi hər kəsə aydın olur: "Bir il bundan öncə vaksin deyiləndə 1 yaşına qədər uşaqların vaksinasiyası yada düşürdü. Amma mən uzun müddətdir vaksinlərlə çalışıram. İnsanlar vaksinlərə düzgün yanaşmalıdırlar. İnsan orqanizmi virusun genetik materialları ilə heç vaxt rastlaşmaya da bilər və ya daha əvvəl rastlaşdığı bir infeksiyaya da yoluxa bilər. Ona görə də vaksinasiyada əsas məqsəd xəstəliklərin ağırlaşmasının qarşısının alınması və ölüm hallarının azaldılmasıdır".







***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Baş Prokurorluq Binəqədi qəsəbə bələdiyyəsinin sabiq sədri barəsində cinayət işi ilə bağlı məlumat yayıb

Baş Prokurorluq Binəqədi qəsəbə bələdiyyəsinin sabiq sədri Niyaz Niftiyevin barəsində əsassız olaraq həbs qətimkan tədbirinin seçilməsi və cinayət işi üzrə süründürməçiliyə yol verilməsi barədə bəzi kütləvi informasiya vasitələrində həqiqəti əks etdirməyən informasiyalarla bağlı məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konkret faktlara əsaslanmayan, dəqiqləşdirilməmiş, ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən həmin məlumatlar tərəfimizdən təkzib olunur.

Bildiririk ki, Binəqədi qəsəbəsi bələdiyyəsinin sabiq sədri Niyaz Niftiyev 2020-ci il yanvarın 17-dən aprelin 7-dək rəhbərlik etdiyi qurumun digər iki nəfər vəzifəli şəxsi ilə birlikdə qabaqcadan əlbir olaraq koronavirus infeksiyasının (COVID-19) ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunan xüsusi karantin rejimi qaydalarını pozaraq ayrı-ayrı şəxslərə 24 halda sərbəst hərəkətlərinə icazələrin verilməsi üçün saxta arayışlar vermək müqabilində təkrarən rüşvət alıb, özü üçün qanunsuz üstünlük əldə etməklə vəzifə saxtakarlığı törədib.

Faktla bağlı başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində 2020-ci il aprelin 18-də məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmiş Niyaz Niftiyevə Cinayət Məcəlləsinin 309.1-ci (vəzifə səlahiyyətlərini aşma), 311.3.1-ci, 311.3.2-ci (rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə yekun ittiham elan olunub.

Ötən il dekabrın 23-də cinayət işi üzrə tərtib edilmiş ittiham aktı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində təsdiq edilib və iş Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Hazırda cinayət işi məhkəmə baxışındadır.



# "Azərenerji" ASC müxtəlif yanğınsöndürən avadanlıqların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1-LOT üzrə keçirilir: Müxtəlif yanğınsöndürən avadanlıqların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tenderin bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: (012) 490-09-27, 598-05-56).

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq lisenziyalar və sertifikatlar (FHN tərəfindən təqdim olunan lisenziyalar və sertifikatlar);*
- *yanğınsöndürən avadanlıqlar evakuasiya planına uyğun olaraq quraşdırılmalıdır;*
- *yanğınsöndürən avadanlıqlar FHN-nin Yanğın təhlükəsizliyi tələblərinə tam cavab verməlidir;*
- *yanğınsöndürən avadanlıqlar müəyyən edilmiş standartlara və avadanlıqların xarakterinə cavab verən qablaşdırmada təhvil verilməlidir;*
- *yanğınsöndürən avadanlıqlar təhvil verildikdə bu avadanlıqlara aid təlimatlar təqdim olunmalıdır.*

Sənədlər Azərbaycan dilində skan olunaraq dövlət satınalmalarının vahid internet Portalına yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 iyun 2021-ci il saat 09:00-a, qədər bank təminatını və tender təklifini isə 24 iyun 2021-ci il saat 09:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 25 iyun 2021-ci il saat 09:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi dünya şöhrətli rəssam

**TAHİR SALAHOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Xalq rəssamı

**TAHİR SALAHOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5250**
**Sifariş 867**
**Qiymәti 40 qəpik**